Birləşmiş Millətlər Təşkilatı

**Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya**

**Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Komitə**

# Konvensiyanın 33 maddəsi əsasında Azərbaycan Hökümətinin birləşdirilmiş ikinci və üçüncü dövrü hesabatı

## Mündəricat

**Mündəricat** ... 2

**Hesabatın hazırlanması** ... 4

**A. Məqsəd və ümumi öhdəliklər ( Maddə 1- 4)** ... 5

Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu ... 5

Əlilliyin qiymətləndirilməsi sahəsində İKT-nin tətbiqi ilə innovativ islahatlar ... 6

Əlilliyin qiymətəndirilməsi meyarlar ... 7

Əlillik zəminində ayrı-seçkiliyin qarşısının alınması ... 8

Konvensiya üzrə öhdəliklərin icrasının monitorinqi ... 10

Əlilliyi olan şəxslərin təşkilatların ictimai qərar qəbul etmə prosesində iştirakı ... 10

Azərbaycan işarət dili ... 12

**B. Xüsusi hüquqlar (maddə 5 -30)** ... 12

Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi (maddə 5) ... 12

Əlillik zəminində ayrı-seçkiliyə qarşı qanunvericilik və siyasət tədbirləri ... 12

Etnik və dini azadlıq ... 13

Əlilliyi olan qadınlar (maddə 6) ... 14

Gender və əlillik perspektivlərinin nəzərə alınması ... 14

Əlilliyi olan qadınlara və qızlara qarşı çoxsaylı və kəsişən ayrı-seçkiliyin, o cümlədən məişət və cinsi zorakılığın qarşısının alınmasına yönəlik qanunvericilik və siyasət tədbirləri ... 15

Əlilliyi olan qadınların və qızların cinsi və reproduktiv sağlamlıq hüquqları ... 16

Əlilliyi olan qadınlara və qızlara qarşı cinsi zorakılıq halları ... 17

Əlilliyi olan uşaqlar (maddə 7) ... 17

Əlilliyi olan uşaqların müəssisələrə düşməsinin qarşısının alınması ... 18

Zorakılığa məruz qalan əlilliyi olan uşaqlara dəstək və təlimlər ... 19

Məlumatlılığın artırılması (maddə 8) ... 20

Maarifləndirmə kompaniyaları ... 20

Müyəssərlik (maddə 9) ... 24

Müyəssərliyin təmin edilməsi üzrə tədbirlər ... 24

Dövlət və özəl sektor üçün müyəssərlik və universal dizayn ... 26

Yaşamaq hüququ (maddə 10) ... 26

Xüsusi müəssisələrdə yerləşdirilmiş əlilliyi olan şəxslərin ölüm sayı və bununla əlaqədar aparılmış təhqiqatlar barədə, eləcə də əlilliyi olan şəxslərin, xüsusilə də əqli və psixososial əlilliyi olan şəxslərin həyatının qorunması ilə bağlı görülən tədbirlər ... 26

Riskli vəziyyətlər və fövqəladə humanitar hallar (maddə 11) ... 27

Qanun qarşısında bərabərlik (maddə 12) ... 28

Ədliyyə sisteminin əlçatanlığı (maddə 13) ... 28

Azadlıq və şəxsi toxunulmazlıq (maddə 14) ... 30

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan azadolma (maddə 15) ....30
İstismar, zorakılıq və təhqirdən azadlıq (maddə 16) ....32
Şəxsi toxunulmazlığın qorunması (maddə 17)....33
Müstəqil yaşamaq və cəmiyyətin həyatında iştirak (maddə 19)....36
İnklüziv təhsil ....36
Fərdi hərəkət etmə (maddə 20)....37
Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı (2019-2023)....37
"Müyəssər metro" layihəsi....38
İfadə və fikir azadlığı,məlumatlara çıxış imkanı (maddə 21) ....38
Dövlət orqanlarının veb səhifələrinə müyəssərlik ....39
"Danışan kitab" layihəsi ....39
Evə və ailəyə hörmət (maddə 23) ....40
Təhsil (maddə 24)....40
İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018-2024) ....40
Əmək və məşğulluq (maddə 27) ....41
"e-sosial" internet portalı ....43
Məşğulluq Stategiyası (2019-2030)....44
Ağlabatan uyğunlaşdırılma....45
Siyasi və ictimai həyatda iştirak (maddə 29) ....46
Mədəni həyat, istirahət, asudə vaxtı və idmanda iştirak (maddə 30) ....46
**C. Xüsusi öhdəliklər (maddə 31-33)**....49
Statistika və məlumatların toplanması (maddə 31) ....49
Beynəlxalq əməkdaşlıq (maddə 32) ....50
Milli icra və monitorinq (maddə 33)....50
Konvensiyanın icrasının təmin olunması ilə bağlı koordinasiya mexanizmləri ....51
Konvensiyanın icrasına nəzarət etmək istiqamətində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin mandatı və həyata keçirdiyi fəaliyyətlər ....51
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Ofisinin potensialının gücləndirilməsi....53

## Giriş

1. Azərbaycan Respublikası Hökuməti BMT-nin əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinə "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının (Konvensiya) icrası ilə bağlı sadələşdirilmiş ikinci və üçüncü dövrü hesabatını təqdim edir. Azərbaycan Respublikası Hökuməti Əlilliyi olan Şəxslərin Hüquqları üzrə BMT Konvensiyası və ona Əlavə Protokola 28 yanvar 2009-cu il tarixində qoşulmuş və Hökumət, 2011-cu il fevralda əlilliyi olan şəxslərin hüquqlarının təşviq və müdafiəsi sahəsində gördüyü tədbirlər barədə ilkin hesabatını Əlilliyi olan şəxslərin hüquqları üzrə BMT-nin Komitəsinə təqdim etmişdir.

2. Azərbaycan Respublikası qoşulduğu "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Birləşmiş Millətlər Təşkilatının Konvensiyası ilə nəzərdə tutulmuş əlilliyi olan şəxslərin bütün hüquq və azadlıqların təmin olunmasını, eləcə də bu hüquqların təşviqi və müdafiəsi sahəsində görülmüş işlər bu hesabatda əksini tapmışdır.

## Hesabatın hazırlanması

3. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları üzrə Konvensiya"sının icrası ilə bağlı Azərbaycan Respublikasının birləşdirilmiş ikinci və üçüncü dövri hesabatı Komitənin təsdiq etdiyi, Azərbaycan Respublikası Hökuməti tərəfindən cavablandırılmalı sualların siyahısında qeyd olunmuş məsələlərə dair dövlət qurumlarının fəaliyyət istiqaməti üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmışdır.

4. BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya”sının icrası ilə bağlı Azərbaycan Respublikasının 2-ci və 3-cü birgə məruzələr müvafiq nazirlik və komitələr tərəfindən təqdim edilmiş məlumatların əsasında “BMT-nin insan hüquqları mexanizmləri üzrə qurumları ilə əməkdaşlığın səmərəliliyinin artırılması haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2018-cil il 20 sentiyabr tarixli 504 nömrəli Sərəncam ilə yaradılmış İşçi Qrup tərəfindən hazırlanmışdır.

5. Sözügedən Sərəncam ilə bağlı BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının dövri məruzələrinin hazırlanması və Azərbaycan Respublikasının münasibətdə qəbul edilən tövsiyələrin icrasına nəzarətin həyata keçirilməsini təmin etmək üçün müvafiq dövlət qurumlarından ibarət İşçi Qrupu yaradılmış və həmin İşçi Qrupun fəaliyyətinə rəhbərlik Xarici İşlər Nazirliyinə həvalə edilmişdir.

6. Həmçinin, İşçi Qrupun iclasında Azərbaycan Respublikasının Baş Prokurorunun və İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) nümayəndələri də iştirak edirlər.

7. Hesabatın hazırlanmasında QHT-lərdən, xüsusilə əlilliyi olan şəxslərin təşkilatlarından da məlumatlar əldə edilmişdir.

## A. Məqsəd və ümumi öhdəliklər ( Maddə 1- 4)

**a)**

Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu

8. 31 may 2018-ci il tarixdə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının yeni Qanunu qəbul olunmuşdur. Bu Qanunla "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya ilə nəzərdə tutulmuş bütün hüquq və azadlıqların təmin olunması, o cümlədən bu sahədə dövlət siyasətinin əsas prinsipləri, dövlət təminatları, əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərin reabilitasiyası, məşğulluğu, əlilliyi olan şəxslərin sosial təminatları və s. mühüm məsələlər əhatə edilmişdir.

9. Azərbaycan Respublikası Hökumətinin 20 oktyabr 2017-ci il tarixində BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığına təqdim etdiyi yenilənmiş "Ümumi əsas sənəd" də və ona dair 2019-cu il tarixli yenilənmiş məlumatlarda insan hüquqlarının müdafiəsi və təşviqi sahəsində, o cümlədən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə əlaqədar həyata keçirilən müvafiq tədbirlər öz əksini tapmışdır.

10. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının icrası ilə əlaqədar qanunvericilik təkmilləşdirilir. Bu, əlillik sahəsində indiyə qədər dominantlıq təşkil edən ənənəvi tibbi modeldən, insan hüquqlarına əsaslanan sosial modelə keçid, milli qanunvericiliyin Konvensiyaya uyğunlaşdırılması istiqamətində görülən köklü islahat tədbiridir.

11. Hazırlanan layihələr arasında, Konvensiyanın 5-ci maddəsinə Komitənin ümumi şərhi rəhbər tutulmaqla hazırlanmış "İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması Qaydası"nı, əlilliyi olan şəxslər və əlilliklə bağlı ölkə üzrə vahid elektron reyestrin yaradılması ilə bağlı qaydanı, eləcə də sosial reabilitasiyanın tətbiqini ehtiva edən Fərdi Reabilitasiya Proqramını qeyd etmək lazımdır.

12. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunla təsdiq edilmiş İnzibati Xətalar Məcəlləsi, 1 fevral 1999-cu il tarixli 618-IQ nömrəli "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Əmək Məcəlləsi, 25 iyun 1999-cu il tarixli 695-IQ nömrəli "Azərbaycan Respublikası Torpaq Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Torpaq Məcəlləsi, 28 dekabr 1999-cu il tarixli 781-IQ nömrəli "Azərbaycan Respublikası Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

təsdiq edilmiş Ailə Məcəlləsi, 26 may 2000-ci il tarixli 886-IQ nömrəli “Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvəyə minmə müddətlərinin dəyişdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Mülki Məcəlləsi, 11 iyul 2000-ci il tarixli 905-IQ nömrəli “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Vergi Məcəlləsi, 28 dekabr 2018-ci il tarixli 1431-VQD nömrəli “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Gömrük Məcəlləsi, 5 mart 2019-cu il tarixli 1525-VQD nömrəli “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Şəhərsalma və Tikinti Məcəlləsi, 27 iyun 2019-cu il tarixli 1623-VQD nömrəli “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Miqrasiya Məcəlləsi, 27 may 2003-cü il tarixli 461-IIQ nömrəli “Azərbaycan Respublikasinin Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Seçki Məcəlləsində, eləcə də 19 may 1998-ci il tarixli 499-IQ nömrəli "Uşaq hüquqları haqqında", 22 noyabr 1998-ci il tarixli 24 nömrəli "Yol hərəkəti", 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli "Məhkəmə və hakimlər haqqında", 20 avqust 1992-ci il tarixli 281 nömrəli "Dini etiqad azadlığı haqqında", 3 sentyabr 1993-cü il tarixli 697 nömrəli "Şəhid adının əbədiləşlədirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və digər müvafiq qanunlarda mətn boyu "əlil" sözünün "əlilliyi olan şəxs" ifadəsi ilə əvəz edilməsi və təhqiredici ifadələrin qanunvericilikdən çıxarılması məqsədilə "qüsür" sözü konteksindən asılı olaraq "çatışmamazlıq" və ya "pozuntu" sözü ilə, "şikəstlik" sözü " əlillik" sözü ilə, "kəmaağıllıq" sözü "əqli gerilik", "lal", kar, "kor" sözləri isə "görmə, eşitmə və nitq qabiliyyəti məhdud olan şəxs" ifadəsi ilə əvəz edilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq qanunvericilik layihələri hazırlanaraq aidiyyəti üzrə hökumətə təqdim edilmişdir.

**b)**

## Əlilliyin qiymətləndirilməsi sahəsində İKT-nin tətbiqi ilə innovativ islahatlar

13. "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkminləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2015-ci il 15 sentyabr tarixili 595 nömrəli Fərmanının 1-ci hisəssinin icrası olaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) yaradılmışdır.

14. “Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli 36 nömrəli Qərarına və bu qərara 11 noyabr 2016-cı il tarixində edimiş 446 nömrəli dəyişikliyə əsasən TSERAS-da təkmilləşdimə aparılmış və vətəndaşların əlillik vəziyyəti dövlət

səhiyyə müəssisələrinin göndərişləri əsasında TSERAS vasitəsi ilə Tibbi-Sosial Ekspert Komisiyaları (TSEK) tərəfindən şəxsin iştirakı olmadan qiymətləndirilir, barələrində verilən qərarla (əlilliyin müddəti və dərəcəsi və ya imtina) vətəndaşlar SMS vasitəsi ilə məlumatlandırılır. Bununla yanaşı, vətəndaşlar "Elektron hökümət" portalında yerləşdirilmiş "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidmətindən, eləcə də 142-0 Çağrı Mərkəzinə zəng edərək interaktiv menyudan istifadə etməklə aparılmış qiymətləndirmənin nəticəsi barədə məlumatı sərbəst şəkildə və maneəsiz əldə edirlər.

15. Qeyd etmək lazımdır ki, BMT tərəfindən Cənub-Cənub Əməkdaşlığı çərçivəsində paylaşılması və digər Cənub ölkələrində də tətbiqi məqsədəuyğun olan müasir və səmərəli, şəffaf iş mexanizmləri kimi qəbul edilmiş Nazirliyin fəaliyyət sahələri üzrə avtomatlaşdırılmış sistemlər, o cümlədən də Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi qabaqcıl təcrübələr kimi BMT-nin "Ərəb ölkələri, Avropa və MDB regionlarında Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Əməkdaşlıq Mexanizmləri və Həllər" adlı portalında yerləşdirilmişdir. Əlilliyin qiymətləndirilməsi sahəsində Azərbaycanın elektron informasiya sistemi Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) tərəfindən Avropa regionu üzrə təşkil edilən “Yaxşı Təcrübə” müsabiqəsində müsbət dəyərləndirilərək BSTA-nın xüsusi mükafatına layiq görülmüşdür. Eyni zamanda, Azərbaycanın bu təcrübəsi Qazaxıstan Respublikası tərəfdən öyrənilərək tətbiq edilməyə başlanılmışdır.

16. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin “Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” 5 sentyabr 2018-ci il tarixli 258 nömrəli Fərmanın 2.4.3-cü yarımbənd icrası ilə bağlı avtomatlaşdırılmış pensiya təyinatı sisteminin texniki imkanları artırılmaqla, əlilliyə görə pensiya təyinatlarının da elektron sistem üzərindən həyata keçirilməsinə başlanıb.

17. Yaşa görə pensiya təyinatı kimi, əlilliyə görə pensiya təyinatı da artıq heç bir yerə müraciət olunmadan və sənəd təqdim edilmədən elektron qaydada təyin olunur. Əlillik təyin olunmuş şəxsin pensiya hüququ yarandıqda ona həmin gün ərzində elektron qaydada pensiya təyin edilməklə bu barədə (həmçinin pensiyanın məbləği, bank kartını əldə edəcəyi bank filialı və vaxt barədə) “sms”, e-mail və ya rəsmi məktubla məlumat verilir.

## Əlilliyin qiymətəndirilməsi meyarlar

18. "Əlilliyin olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərmanın 1.1.5-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Nazirlik tərəfindən "Əlilliyin müəyyən olunması meyarları" adlı yeni qaydalar hazırlanmış, ictimai dinləmə və ictimai müzakirənin təşkili üçün vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin rəy, irad və təkliflərinin alınması məqsədi ilə Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Eyni zamanda, layihə, Nazirlik yanında fəaliyyət göstərən və tərkibində əlilliyi olan şəxslərin təşkilatlarının da yer aldığı İctimai Şura ilə də müzakirə edilmişdir.

19. Əlilliyin müəyyən olunması meyarlarının ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmasının təmin edilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində xüsusi işçi qrup yaradılmışdır. İşçi qrup tərəfindən əlilliyin müəyyən olunması meyarları sahəsində ən qabaqcıl beynəlxalq təcrübələr təhlil edilmiş, Rusiya, Avstriya, Böyük Britaniya, ABŞ və Almaniyanın təcrübələri öyrənilmiş, Avropa İttifaqının "fiziki və əqli əlilliklə bağlı reytinq dərəcəsi" sənədi araşdırılmış, epidemiologiya, sağlamlığın idarə olunması və kliniki məqsədlər üçün istifadə olunan Ümumdünya Səhiyyə Təşkilatının standart diaqnostik aləti olan Xəstəliklərin Beynəlxalq Təsnifatı (XBT) – 10-cu buraxılış və Funksionallığın beynəlxalq təsnifatı (FBT) əsas götürülmüşdür.

20. "Əlilliyin müəyyən olunması meyarları"nın yeni layihəsi də Beynəlxalq Səhiyyə Təşkilatının XBT-10 əsasında xəstəliklərin bölgüsünün aparılması, insan orqanizmi funksiyalarının sabit pozuntularının geniş və təfsilatlı təsvirinin verilməsi, insan orqanizmi funksiyalarının sabit pozuntularının 10-100 faiz diapazonunda qiymətləndirilməsi və bundan irəli gələrək FBT əsasında özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə, əmək fəaliyyəti kimi insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülməklə əlilliyin müəyyən olunmasına dair meyarları özündə ehtiva edir.

21. Sözügedən layihədə istifadə olunan təsnifatlar və kateqoriyalar, əlilliyin müəyyən olunmasında ənənəvi yanaşmadan fərqli olaraq xəstəliklərin və onların ağırlıq dərəcələrinin təcrid olunmuş şəkildə deyil, məhz onlardan irəli gələn insanın həyat fəaliyyətinə təsir dərəcəsini də qiymətləndirməyə şərait yaratmaqla, əlilliyin müəyyən olunmasında sosial reabilitasiya və adaptasiya imkanlarının nəzərə alınması və beləliklə də əlillik sahəsində indiyə qədər uzun müddət dominantlıq təşkil edən ənənəvi tibbi modeldən, insan hüquqlarına əsaslanan sosial modelə keçidə istiqamətlənmişdir.

**c)**

## Əlillik zəminində ayrı-seçkiliyin qarşısının alınması

22. 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsində (referendumda) Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər qəbul edilmişdir. Konstitusiyanın 25-ci maddəsinə VI hissə əlavə edilmişdir "VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar."

23. Əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsini nəzərdə tutan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununda infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması öz əksini tapmışdır. Yuxarıda da qeyd olunduğu kimi,

Konvensiyanın 5-ci maddəsinə Komitənin ümumi şərhi rəhbər tutulmaqla "İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması Qaydası" hazırlanmışdır.

24. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunla təsdiq edilmiş İnzibati Xətalar Məcəlləsi, 1 fevral 1999-cu il tarixli 618-IQ nömrəli “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Əmək Məcəlləsi, 25 iyun 1999-cu il tarixli 695-IQ nömrəli “Azərbaycan Respublikası Torpaq Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Torpaq Məcəlləsi, 28 dekabr 1999-cu il tarixli 781-IQ nömrəli “Azərbaycan Respublikası Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Ailə Məcəlləsi, 26 may 2000-ci il tarixli 886-IQ nömrəli “Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvəyə minmə müddətlərinin dəyişdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Mülki Məcəlləsi, 11 iyul 2000-ci il tarixli 905-IQ nömrəli “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Vergi Məcəlləsi, 28 dekabr 2018-ci il tarixli 1431-VQD nömrəli “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Gömrük Məcəlləsi, 5 mart 2019-cu il tarixli 1525-VQD nömrəli “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Şəhərsalma və Tikinti Məcəlləsi, 27 iyun 2019-cu il tarixli 1623-VQD nömrəli “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Miqrasiya Məcəlləsi, 27 may 2003-cü il tarixli 461-IIQ nömrəli “Azərbaycan Respublikasinin Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında” Azərbaycan Respublikasinin Qanunu ilə təsdiq edilmiş Seçki Məcəlləsində, eləcə də 19 may 1998-ci il tarixli 499-IQ nömrəli "Uşaq hüquqları haqqında", 22 noyabr 1998-ci il tarixli 24 nömrəli "Yol hərəkəti", 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli "Məhkəmə və hakimlər haqqında", 20 avqust 1992-ci il tarixli 281 nömrəli "Dini etiqad azadlığı haqqında", 3 sentyabr 1993-cü il tarixli 697 nömrəli "Şəhid adının əbədiləşlədirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və digər müvafiq qanunlarda mətn boyu "əlil" sözünün "əlilliyi olan şəxs" ifadəsi ilə əvəz edilməsi və təhqiredici ifadələrin qanunvericilikdən çıxarılması məqsədilə "qüsür" sözü konteksindən asılı olaraq "çatışmamazlıq" və ya "pozuntu" sözü ilə, "şikəstlik" sözü " əlillik" sözü ilə, "kəmaağıllıq" sözü "əqli gerilik", "lal", kar, "kor" sözləri isə "görmə, eşitmə və nitq qabiliyyəti məhdud olan şəxs" ifadəsi ilə əvəz edilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq qanunvericilik layihələri hazırlanaraq aidiyyəti üzrə hökumətə təqdim edilmişdir.

**d)**

## Konvensiya üzrə öhdəliklərin icrasının monitorinqi

25. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə məşğul olan QHT-lərə məlumatlandırma, konsultativ, metodiki və təşkilati-texniki yardımlar göstərilmiş, eləcə də bu QHT nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakı üçün səfər qrantları da ayrılmışdır.

26. İnsan Hüquqları üzrə Müvəkkil ilə vətəndaş cəmiyyəti institutları, xüsusilə də əlilliyi olan şəxslər və onları təmsil edən QHT-lər arasında qarşılıqlı əməkdaşlıq əlaqələri mövcuddur ki, bu da həmin qəbildən olan şəxslərin Konvensiyanın icrası üzrə öhdəliklərin monitorinq prosesinə cəlb olunması və iştirakının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Belə ki, hazırda bu qəbildən olan bir sıra QHT-ləri öz ətrafında birləşdirən Əlil Təşkilatları İttifaqının nümayəndələri də Ombudsman yanında fəaliyyət göstərən Ekspertlər Şurasının, habelə "Biznes və insan hüquqları" üzrə işçi qrupun tərkibinə üzv kimi daxil edilmişlər.

27. Ombudsmanın təşəbbüsü ilə ənənəvi olaraq hər il elan olunan "İnsan hüquqları aylığı", "Uşaq hüquqları aylığı" və "Sülh aylığı" çərçivəsində keçirilən hüquqi maarifləndirmə tədbirləri əhalinin bütün sosial quruplarının, o cümlədən əlilliyi olan şəxslərin hüquqlarının təbliği işinə mühüm töhfələr vermişdir.

28. Bundan əlavə hər il Ombudsmanın resurs mərkəzləri olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin Liderlik Məktəbində və Ahılların Resurs Mərkəzində həmin təşkilatların üzvləri üçün əlilliyi olan şəxslərin hüquqları ilə bağlı təlimlər təşkil olunmuşdur.

29. 2016-cı ildə 3 dekabr – Beynəlxalq Əlilliyi olan Şəxslər Günü və BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının qəbul edilməsinin 10 illiyi münasibətilə İnsan Hüquqları üzrə Müvəkkili Aparatında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər aidiyyəti dövlət qurumlarının, vətəndaş cəmiyyətinin, bu qəbildən olan şəxsləri təmsil edən QHT və KİV nümayəndələrinin iştirakı ilə "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya – 10 il: görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda konfrans keçirilmişdir.

**e)**

## Əlilliyi olan şəxslərin təşkilatların ictimai qərar qəbul etmə prosesində iştirakı

30. Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması, onların problemlərinin həllinə cəmiyyətin cəlb olunması, xüsusi qayğıya ehtiyacı olan uşaqları və onların ailələrini müəyyənləşdirmək, onların cəmiyyətə hərtərəfli qoşulması və inkişafını təmin etmək məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2015-2016-ci illərdə "Günəş hamı üçündür" adlı maarifləndirmə layihəsi həyata keçirilmişdir.

31. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən bu günədək sağlamlıq imkanları məhdud uşaqların kinematoqrafiyaya olan bacarıqlarının aşkara çıxarılması eyni zamanda cəmiyyətə inteqrasiyası məqsədilə ardıcıl tədbirlər həyata

keçirilir. Təşkilat Komitəsinə təqdim olunmuş müvafiq mövzuda filmlər və sosial çarxlar hər il maarifləndirmə tədbirlərində istifadə olunması məqsədilə icra hakimiyyətlərinə (rayon və şəhər) təqdim edilir və eyni zamanda, Komitə tərəfindən həyata keçirilən tədbirlərdə nümayiş olunur.

32. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq həyata keçirilən tədbirlərdə - uşaq forumlarında, yay məktəblərində, uşaq hüquqları sahəsində təlimlərdə, yaradıcılıq sahəsində master-klass tədbirlərində sağlamlıq imkanları məhdud uşaqların iştirakı təmin edilməklə onların inkişafı, cəmiyyətə inteqrasiyası və ictimai fəallığının artırılması istiqamətində işlər həyata keçirilir. Komitə tərəfindən xüsusi (Beynəlxalq *Daun* Sindromu *Günü,* Beynəlxalq Uşaq *Onkoloji* Xəstəlikləri ilə Mübarizə *Günü,* Beynəlxalq Əlilliyi olan şəxslərin Günü) və əlamətdar (Novruz və Qurban bayramları) günlərdə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə onlara mənəvi dəstəyin göstərilməsi, cəmiyyətin diqqətinin onlara yönəldilməsi, eləcə də cəmiyyətə inteqrasiyasının gücləndirilməsi məqsədilə müxtəlif əyləncəli, bədii tədbirlər keçirilir.

33. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və UNİCEF-lə birgə 2017-ci ildə IV Forumu keçirilib. Bu forum uşaqlarda liderlik keyfiyyətlərinin formalaşmasına təkan vermək, uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, uşaqlara öz problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək məqsədini daşıyır.

34. 2018-2019-cu illər ərzində Komitə tərəfindən uşaqların həyati bacarıqlarının inkişaf etdirilməsi, onların öz hüquq və vəzifələri barədə məlumatlandırılması məqsədilə müxtəlif tədbir və təlimlər keçirilmişdir. Eyni zamanda hər il keçirilən uşaq hüquqlarının müdafiəsi və uşaq hüquqları ilə bağlı tədbirlərdə uşaqların əl işlərindən ibarət müxtəlif sərgilər təşkil olunur. Ümumilikdə bu istiqamətdə 1300-dən çox uşağı əhatə edən təlim və tədbirlərdə 500-dən çox sağlamlıq imkanları məhdud uşaq iştirak etmişdir.

35. İnsan Hüquqları üzrə Müvəkkil BMT Baş Məclisinin 1999-cu ildə elan etdiyi 25 noyabr - qadınlara qarşı zorakılığın ləğv olunması uğrunda beynəlxalq mübarizə günündən başlanılan və 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Gününədək davam etdirilən "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası zamanı xüsusi fəallıq göstərmiş, paytaxt və regionlarda dövlət qurumlarının əməkdaşlarının, QHT-lərin nümayəndələrinin, bələdiyyə üzvlərinin, fəal gənclərin, müəllimlərin, məktəblilərin, geniş ictimaiyyətin, o cümlədən qadınların, uşaq və yeniyetmələrin, habelə əlilliyi olan şəxslərin iştirakı ilə silsilə maarifləndirmə tədbirləri təşkil etmişdir.

36. Bundan əlavə Ombudsmanın resurs mərkəzləri olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin (AUGSŞ) Liderlik Məktəbində, Ahılların Resurs Mərkəzində, eyni zamanda Gəncə, Şəki, Cəlilabad və Qubada yerləşən Regional Mərkəzlərində keçirilən tədbirlərdə İnsan Hüquqları üzrə Müvəkkil qadınlara qarşı zorakılıq probleminə fərdi yanaşmanı, bu məsələnin səbəblərini araşdırmağı bu istiqamətdə işi müxtəlif mərhələlər üzrə aparmağı təklif etmişdir. Ən əvvəl, preventiv üsullarla qarşısını almaq, hüquqi maarifləndirmə, icmalarla, ailələrlə görüşlər, söhbətlər və izahat işi aparmaq, həmçinin

zorakılıq hallarının aşkar olunması, pozulmuş hüquqların bərpası, azyaşlı qızların təhsildən kənarda qalmasının və erkən evliliklərin qarşısının alınmasının, regionlarda xüsusi sığınacaqların yaradılmasının, qadınların fəallığının artırılmasının, habelə onların idarəetmədə, qərar qəbuletmədə, seçkilərdə fəal iştirakının, vəzifələrə irəli çəkilməsinin, qadın sahibkarlığının inkişaf etdirilməsinin, valideynlər arasında olan bəzi münaqişəli vəziyyətlərdə uşaqların manipulyasiyaya, əzablara məruz qalmamasının da vacibliyi vurğulamışdır.

**f)**

### Azərbaycan işarət dili

37. İşarət dilinin (jestika) dövlət tərəfindən rəsmi istifadə olunan dil kimi qəbul edilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə layihə hazırlanmışdır. Layihə aidiyyəti dövlət qurumları ilə razılaşdırıldıqdan sonra hökumətə təqdim ediləcəkdir.

38. Bundan başqa, eşitmə və nitq qabliyyəti məhdud olan uşaqlar üçün xüsusi internat məktəbləri və məktəbəqədər müəssisələrdə "İşarət dili" daktil və jestlərdən ünsiyyət vasitəsi kimi istifadə olunur. Eşitmə qabliyyəti məhdud olan uşaqlar üçün ibtidai siniflər (1-4 sinif) Ana dili və Riyaziyyat fənni üzrə dərsliklər, Riyaziyyat fənni üzrə İş dəftəri və Müəllimlər üçün metodiki vəsait nəşr edilmişdir.

# B. Xüsusi hüquqlar (maddə 5 -30)

## Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi (maddə 5)

**a)**

### Əlillik zəminində ayrı-seçkiliyə qarşı qanunvericilik və siyasət tədbirləri

39. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.3-cü maddəsinə əsasən əlilliklə bağlı istənilən fərqqoyma, istisna və məhdudiyyət tətbiqetmə, o cümlədən bu Qanuna uyğun olaraq və Konvensiyanın prinsiplərindən irəli gələrək müyəssərliyə nail olmaq üçün ağlabatan uyğunlaşmadan imtina, əlilliyə görə ayrı-seçkilik hesab olunur.

40. Qeyd olunan Qanunun 4-cü maddəsində əlilliyi olan şəxslərin hüquqi vəziyyətinin əsasları müəyyən edilmişdir. Belə ki, əlilliyi olan şəxslər Azərbaycan Respublikasının Konstitusiyasında və digər normativ hüquqi aktlarda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş bütün insan və vətəndaş hüquq və azadlıqlarına malikdirlər. Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkilik qadağandır və qanunla təqib edilir. Əlilliyi olan şəxslərin faktiki bərabərliyinin sürətləndirilməsi və ya buna nail olunması üçün zəruri olan konkret tədbirlər ayrı-seçkilik hesab edilmir. Əlilliyi olan şəxs özü və ya nümayəndə vasitəsi ilə hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədi ilə inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan, inzibati orqanın

hərəkət və ya hərəkətsizliyindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şikayət edə bilər.

41. Qanunun 5.0.5-ci maddəsinə uyğun olaraq əlillik əlamətinə görə ayrı-seçkiliyə yol verilməməsi, yəni əlilliyi olan şəxslərin digərləri ilə qanunla bərabər səviyyədə müdafiə olunmaq və ondan bərabər istifadə etmək hüquqlarının təsbit və təmin edilməsi, əlilliklə bağlı istənilən fərqqoyma, istisna və məhdudiyyət tətbiqindən imtina olunması əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsas prinsiplərindən biridir.

42. Nazirlər Kabinetinin 15 avqust 2000-ci il tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı"nın 7-ci bəndindən "Əmək qabiliyyətini itirməklə I və II dərəcə əlilliyə gətirib çıxaran bütün travmalar və xəstəliklər" qeyd olunmuşdur. Lakin, Azərbaycan Respublikası Prezidentinin "Övladlığagöturmə sahəsində idarəetmənin təkmilləşdirilməsi" haqqında 10 dekabr 2018-ci il tarixli 393 nömrəli Fərmanı ilə verilmiş tapşırıqların icrası məqsədi ilə hazırlanmış qanunvericilik layihələrində bu müddəa çıxarılmışdır.

**b)**

## Etnik və dini azadlıq

43. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanununa əsasən hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

44. BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya"sının icrası ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq dini etiqad azadlığının təmin olunması üçün müvafiq şəraitin yaradılması, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə kömək edilməsi, ölkə vətəndaşlarına, o cümlədən dini azlıqlara, xüsusilə əlilliyi olan şəxslərə qarşı dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması məqsədilə maarifləndirmə işi aparmışdır.

45. Dövlət Komitəsi tərəfindən təkcə 2016-cı il "Multikulturalizm ili" çərçivəsində mədəni müxtəliflik, dini azlıqların hüquqlarının qorunması, tolerantlıq, konfliktlərin həllində mədəniyyətlərarası dialoqların rolu və s. istiqamətlərdə respublika üzrə 150-dən artıq tədbir təşkil edilmişdir. Eyni zamanda, Dövlət Komitəsi ölkəmizdə hər il mütəmadi keçirilən "İnsan hüquqları aylığı" və "Uşaq hüquqları aylığı" çərçivəsində silsilə tədbirlər təşkil etmişdir. Təkcə 2018-ci ildə bu istiqamətlərdə 50-yə yaxın tədbir keçirilmişdir.

46. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2017-ci il tarixli 1624 nömrəli Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır. Fond xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə kömək göstərilməsi üçün tədbirlər görür, o cümlədən onların dərman vasitələri, zəruri ərzaq və əsas tələbat malları almasına maddi yardım göstərir. Sadalanan bu yardımlardan dini azlıqlara mənsub əlilliyi olan şəxslər də tam faydalanmaq hüququna malikdirlər və bu, praktikada təsdiqini tapır.

47. İnsan Hüquqları üzrə Müvəkkil və onun əhalinin etnik, din və dil mənsubiyyətlərinə görə azlıq təşkil edən qruplarının (məsələn, ləzgilər, avarlar, udinlər, ingiloylar, tatlar, talışlar və s.) kompakt yaşadığı ərazilərdə yerləşən Gəncə, Quba, Şəki və Cəlilabad Regional Mərkəzləri tərəfindən ölkə ərazisində yaşayan 90-dək milli azlıq və etnik qrupu təmsil edən şəxslərin hüquqlarının müdafiəsi daim diqqət mərkəzində saxlanılmış, eləcə də onların cəmiyyətdə tam şəkildə iştirakını təmin etmək üçün bir sıra təşəbbüslər irəli sürülmüşdür.

48. Ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təbliği və tətbiqi vəziyyətinin monitorinqi məqsədilə, İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü əsasında paytaxt Bakıda və ölkənin 57 şəhər və rayonlarında Milli Məclisin deputatlarının, yerli icra hakimiyyəti, məhkəmə və hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, yerli QHT-lərin, kütləvi informasiya vasitələrinin (KİV), qaçqın və məcburi köçkünlərin, yerli icmaların, o cümlədən etnik azlıqların nümayəndələrinin iştirakı ilə təşkil etdiyi ictimai dinləmələrə etnik azlıqların nümayəndələri, o cümlədən əlilliyi olan şəxslər də dəvət olunaraq iştirak etmişlər. Həmin tədbirlərdə sosial statusundan asılı olmayaraq hər kəsin heç bir ayrı-seçkiliyə yol verilmədən bütün hüquqlara malik olduğu vurğulanmış, etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

## Əlilliyi olan qadınlar (maddə 6)

**a)**

### Gender və əlillik perspektivlərinin nəzərə alınması

49. İnsan Hüquqları üzrə Müvəkkil, fəaliyyəti dövründə əlilliyi olan qadınların hüquqlarının təmini məqsədilə, onların ayrı-seçkilikdən müdafiəsi, hərtərəfli inkişafının təmin edilməsinə xidmət edən təkliflər irəli sürmüşdür.

50. Qeyd etmək lazımdır ki, Ombudsman tərəfindən "Azərbaycanda gender əsaslı cinsi seçimin qarşısının alınmasına dair 2019-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihəsinə dair hazırlanmış təkliflər sırasında əlilliyi olan qadınlarla bağlı məsələlər də öz əksini tapmışdır.

51. Bundan əlavə Ombudsmanın təqdim etdiyi təkliflər də nəzərə alınmaqla "Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2019-2023-cü illər üçün Milli Fəaliyyət Planı" layihəsi hazırlanmışdır ki, bu da əlilliyi olan şəxslərin, o cümlədən qadın və uşaqların hüquqlarının müdafiəsinə xidmət edir.

52. BMT-nin İnkişaf Proqramı, BMT-nin Əhali Fondu və ƏƏSMN, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, əlilliyi olan şəxslərin yerli QHT-ləri tərəfindən "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması" adlı birgə proqram təsdiq edilmişdir. Bu proqram "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın 4-cü (Ümumi öhdəliklər), 6-cı (Əlilliyi olan qadınlar), 8-ci (Məlumatlığın artırılması), 9-cu (Müyəssərlik), 27-ci (Əmək və

məşğulluq), 31-ci (Statistika və məlumatların toplanması) maddələrinin icrasına şərait yaradacaq.

53. Proqramın əsas məqsədi əlilliyi olan qadınların ehtiyacları və potensialı ilə bağlı etibarlı məlumatlara əsaslanan siyasətin hazırlanması üçün daha yaxşı məlumatların və dəlillərin hazırlanması, qərarverici şəxslərin və əhalinin əlilliyi olan şəxslərin xüsusi zəiflikləri barədə məlumatlılığının artırılması, habelə həm ölkə daxilində, həm də regionda nümunəvi təcrübələrin mübadiləsinə yönələn bir-biri ilə qarşılıqlı əlaqəli tədbirlər vasitəsilə Hökumətin qadınlara və Dağlıq Qarabağ müharibəsi veteranlarına xüsusi diqqət yetirməklə, əlilliyi olan şəxslərin müdafiəsi və rifahı ilə bağlı hüquqlarını təmin etmək və həyata keçirmək üçün göstərdiyi səylərə dəstək verməkdən ibarətdir.

54. Birgə proqram tərtib edilərkən, Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Komitənin Azərbaycanla bağlı Yekun Tövsiyələri (12 may 2014) nəzərə alınıb. Proqramın yanaşması ikisəviyyəli olub, milli və submilli səviyyələrə yönəlir. Buraya əlilliyi olan şəxslərin birbaşa şəkildə iqtisadi imkanların yaxşılaşdırılması vasitəsilə, dolayı şəkildə isə ictimai məkanların əlilliyi olan şəxslər üçün daha əlçatan və rahat olması yolu ilə faydalanması üçün ümumi və məqsədyönlü yanaşmalardan birgə istifadə ediləcək.

**b)**

## Əlilliyi olan qadınlara və qızlara qarşı çoxsaylı və kəsişən ayrı-seçkiliyin, o cümlədən məişət və cinsi zorakılığın qarşısının alınmasına yönəlik qanunvericilik və siyasət tədbirləri

55. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli, 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 3.5.2.1-ci bəndinə əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə cinsi zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin yaradılması məqsəd ilə bütün rayonlarda yerli icra orqanlarının nümayəndələrindən ibarət cinsi zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Cinsi zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq yerli monitorinq qrupları yerlərdə vəziyyətin qiymətləndirilməsi, həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması, riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi, zorakılığın səbəblərinin araşdırılması və təhlil edilməsi, xüsusilə də baş vermiş ağır zorakılıq hallarının müzakirəsi, zorakılıq qurbanlarının müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi üzrə fəaliyyətlərin əlaqələndirilməsi kimi funksiyaları həyata keçirir.

56. BMT-nin Əhali Fondu, USAİD-in dəstəyi ilə və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 33 rayon/şəhərdə yerli icra hakimiyyətlərində yaradılmış "cinsi zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarına "Məişət zorakılığının qarşısının alınması mexanizmləri" mövzusunda təlimlər keçirmişdir. Həmçinin layihə çərçivəsində dövlət orqanlarının mütəxəssisləri üçün "Məişət zorakılığı qurbanları ilə necə davranmalı" adlı təlimatlar hazırlanmışdır.

57. İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə Bakı Dövlət Universitetində yaradılmış "İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO" kafedrasında bakalavr və

magistr pilləsində insan hüquqları üzrə yüksək ixtisaslı kadr hazırlığı bu sahədə elmi yanaşma nümayiş etdirilməklə davam etdirilməsi, "İnsan hüquqları", habelə "Genderə giriş" fənlərinin müstəqil bir fənn kimi universitet səviyyəsində tədrisi, "Genderə giriş" fənni üzrə mühazirələr toplusunun kitab şəklində nəşr etdirilməsi yeni nəsil hüquqşünaslar, sosial işçilər və ixtisaslaşmış psixoloqların hazırlanması işinə öz töfhəsini vermişdir. Müvafiq tədris proqramlarına əlilliyi olan qadınlara və qızlara qarşı ayrı-seçkiliyin, o cümlədən məişət və cinsi zorakılığın qarşısının alınması məsələləri ilə bağlı müddəalar daxil edilmişdir.

58. Eləcə də, bölgələrdə, ucqar rayon və kəndlərdə yaşayan qadınlar üçün gender bərabərliyi, məişət zorakılığı, insan alveri, erkən evliliklər və digər mövzularda maarifləndirici seminar və məşğələlər keçirilmiş, intensiv maarifləndirmə işinin nəticəsi olaraq isə yüzlərlə qadın öz hüquqları barədə məlumatlanmış və müraciətlər əsasında onlara təmənnasız hüquqi məsləhətlər verilmişdir.

**c)**

## Əlilliyi olan qadınların və qızların cinsi və reproduktiv sağlamlıq hüquqları

59. İnsan Hüquqları üzrə Müvəkkil əlilliyi olan qadınların və qızların da cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmini baxımından mühüm əhəmiyyətə malik olan "Reproduktiv sağlamlığın qorunması haqqında" qanunun qəbul edilməsinin sürətləndirilməsi, reproduktiv sağlamlıq və ailə planlaşması üzrə strateji proqramın hazırlanması, təsdiq edilərək tətbiq olunması, icma səviyyəsində reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə maarifləndirmə tədbirlərinin müntəzəm həyata keçirilməsi, ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, erkən nikahlar, təhlükəsiz analığın təmin edilməsi, uşaqların ana südü ilə qidalanması, sağlam, istənilən sayda və ara verməklə arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılması, ana və uşaqlar arasında ölüm hallarının azaldılması, mama-ginekoloji xidməti göstərən tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, habelə ahıl qadınların problemlərinə dair işlərin davam etdirilməsi, erkən evlilik və erkən analığın qarşısının alınmasına dəstək məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-ci maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllədən çıxarılması ilə bağlı ötən dövr ərzində irəli sürdüyü təkliflər əlilliyi olan qadınların və qızların da cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmini baxımından mühüm əhəmiyyət kəsb edir.

60. Ombudsmanın resurs mərkəzi kimi fəaliyyət göstərən Azərbaycan Qadın və İnkişaf Mərkəzi tərəfindən respublikamızın müxtəlif bölgələrində, o cümlədən, məcburi köçkünlərin, etnik qrupların məskunlaşdığı rayonlarda yaşayan qadınlar arasında "İcma səviyyəsində reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində maarifləndirmə işinin təşkili" adlı layihə çərçivəsində təşkil edilmiş geniş maarifləndirmə tədbirlərində əlilliyi olan qadınların və qızların cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmini məsələlərinə də diqqət yetirilmişdir.

61. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2019-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın layihəsi hazırlanmışdır. Milli Fəaliyyət Planının layihəsində BMT-nin “Əlilliyi olan Şəxslərin

Hüquqları haqqında Konvensiya"nın 6-cı Maddəsinin (Əlilliyi olan qadınlar) icrası ilə əlaqədar olaraq əlilliyi olan qadınların əsas ehtiyaclarının öyrənilməsi ilə bağlı araşdırmaların aparılması istiqamətində tədbirlərin ("Çətin həyat şəraitində yaşayan qadın və qızlar" (5.6) bəndinin alt bəndləri "Əlilliyi olan qadınların məşğulluğunun artırılması, yeni peşələrə yiyələnməsi üçün kursların təşkili" (5.6.2) və Əlilliyi olan qadınların əl işlərindən ibarət (ildə 3 dəfə olmaqla) satış sərgilərinin təşkili" (5.6.3) həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**d)**

### Əlilliyi olan qadınlara və qızlara qarşı cinsi zorakılıq halları

62. 2014 - 2018-ci illər ərzində respublika məhkəmələrində əlilliyi olan qadınların və qızların zərərçəkmiş şəxs qismində tanındığı Cinayət Məcəlləsinin "şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" adlanan 20-ci fəsli üzrə 13 hökm çıxarılmışdır (2014-cü ildə - 3, 2015-ci ildə - 3, 2016-cı ildə - 3, 2017-ci ildə - 2, 2018-ci ildə - 2 hökm).

63. Həmin hökmlər üzrə 14 nəfər müəyyən müddətdə azadlıqdan məhrumetmə cəzasına, 1 nəfər şərti cəzaya məhkum edilmiş, 2 nəfər bəraət almışdır.

64. Qeyd edilən hökmlər üzrə zərər çəkmiş 15 əlilliyi olan qadından 5-i cinayətin baş verdiyi zaman yetkinlik yaşına çatmamış olmuşdur.

65. Əlilliyi olan qadınlara və qızlara qarşı cinsi zorakılıq halları ilə bağlı Ombudsman təsisatına heç bir müraciət daxil olmamışdır.

## Əlilliyi olan uşaqlar (maddə 7)

**a)**

### Əlilliyi olan uşaqlarla bağlı məlumatların uçotu

66. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə əsasən, bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

67. Təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şagirdlər üzrə məlumat bazası yaradılmışdır. Məlumat bazası evdə təhsil, xüsusi təhsil müəssisələrində və ya xüsusi siniflərdə, o cümlədən ümumi təhsil məktəblərində inklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar barədə məlumatları özündə əks etdirəcəkdir. Məlumatlar xüsusi

təhsilə cəlb olunacaq uşaqlara dair maliyyə proqnozunun əldə edilməsinə, onların təhsilinə sərf olunan maliyyə xərclərinin izlənməsinə, təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar barəsində (şagirdin ünvanı, məhdudiyyəti, əlillik növü, cəlb olunduğu təhsil proqramı, təvəllüdü, oxuduğu məktəb, sinif və s.) şəhər, rayon və ümumilikdə ölkə üzrə ətraflı məlumatların əldə edilməsinə imkan yaradacaqdır.

68. 2019-cu ildən 1-ci sinifə qəbul olunan sağlamlıq imkanları məhdud uşaqlar barəsində psixoloji-tibbi-pedaqoji komissiyanın qərarları məlumat bazasına daxil edilmişdir. Növbəti ildən isə xüsusi təhsilə cəlb olunan hər bir sağlamlıq imkanları məhdud uşaqlar barəsində təfsilatlı məlumatlar, komissiya tərəfindən müayinənin aparılması üçün digər qurumlardan təqdim olunan sənədlərin surəti və komissiyanın qərarları məlumat bazasında öz əksini tapacaqdır.

69. Bununla yanaşı məlumat bazası Dünya Səhiyyə Təşkilatı tərəfindən hazırlanmış Funksionallığın Beynəlxalq Təsnifatı — Uşaqlar və gənclər üçün (FBT-UG) qiymətləndirmə aləti uşaqların üzləşdikləri məhdudiyyətlərinin və imkanlarının qiymətləndirilməsi və həmin nəticələr əsasında uşaqların ehtiyacına uyğun xüsusi təhsil alma formasına yönəldilmələrinə şərait yaradır. Məlumat bazasının istifadəsi və uşaqların qiymətləndirməsinə dair yerli psixoloji-tibbi-pedaqoji komissiyaların üzvlərinə regional səviyyədə təlimlər keçirilmiş, lazımi bilik və bacarıqlar aşılanmışdır.

**b)**

### Əlilliyi olan uşaqların müəssisələrə düşməsinin qarşısının alınması

70. "Reabilitasiya mərkəzləri haqqında" Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli, 85 nömrəli qərarı ilə təsdiq edilmişdir. Təhsil Nazirliyinin tabeliyində 2 reabilitasiya mərkəzi - Mingəçevir şəhər "Uşaq və Ailəyə Dəstək Mərkəzi" və "Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Reabilitasiya Mərkəzi" fəaliyyət göstərir. Ümumilikdə 217 nəfər uşaq reabilitasiya xidmətlərinə yönləndirilmişdir. Eyni zamanda valideyn himayəsindən məhrum olmuş sağlamlıq imkanları məhdud uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbinin nəznində də reabilitasiya mərkəzi fəaliyyət göstərir. Həmin mərkəzə isə sağlamlıq imkanları məhdud 147 nəfər cəlb edilmişdir.

71. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin regionlarda fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə 427 əlilliyi olan şəxslərlə bağlı müraciət daxil olmuşdur. Mərkəz xidmətlərindən yararlanmaqla bağlı müraciətlərdən 407-si sağlamlıq imkanları məhdud uşaqların icma əsaslı reabilitasiya xidmətlərinə cəlb edilməsi ilə əlaqədar olmuşdur. Uşaqlar mərkəzlərin aktiv terapiya, loqopediya, autizimli uşaqların reabilitasiyası xidmətlərinə cəlb olunmuş, xüsusi kurs və dərnəklərdə fəaliyyətlərə cəlb edilmişlər. Mərkəzlər tərəfindən il ərzində sağlamlıq imkanları məhdud uşaqlara 7121 aktiv həyat bacarıqların inkişaf etdirilməsi ( böyük motirika, kiçik motorika, özünə xidmət, sosial ünsiyyətin və qavrama bacarıqlarının inkişafı) üzrə məşğələlər keçirilmişdir.

72. Eləcə də, Səhiyyə Nazirliyi tərəfindən tərəfindən qəbul edilmiş psixi sağlamlıq üzrə Milli Strategiya çərçivəsində paytaxtın hər bir rayon poliklinikası uşaq psixiatrı ilə, bundan əlavə, bütün iri miqyasli uşaq xəstəxanaları kilinik psixoloqlarla təmin olunmuşdur. 2018-ci ildə ilk dəfə olaraq ölkəmizdə uşaqlara xidmətin psixiatr, psixoloq, sosial işçi, loqoped, xüsusi tələbatları olan uşaqlarla işləyən pedaqoq və könüllüləri özündə cəmləyən multidisiplinar komanda tərəfindən göstərildiyi müasir psixososial reabilitasiya mərkəzi yaradılmışdır. Bundan əlavə uşaq poliknikalarının əsasında ölkənin 14 bölgəsində psixi sağlamlıq sahəsində icma əsaslı yardımın göstərilməsi üzrə xidmət yaradılmışdır.

73. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial sifarişləri ilə Respublikanın 21 rayon və şəhərində (Sumqayıt, Balakən, İmişli, Kürdəmir, Şəmkir, Masallı, Yardımlı, Ağdaş, Zaqatala, Saatlı, Şirvan, Qəbələ, Samux, Ağstafa, Cəlilabad, Biləsuvar, Xaçmaz, Göyçay, Gədəbəy, Mingəçevir, Sabirabad) sağlamlıq imkanları məhdud uşaqlar üçün icma əsaslı sosial reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlərdə ümumilikdə 1100-dək uşağa sosial reabilitasiya xidmətləri göstərilir.

74. İxtisaslaşmış QHT-lər, yaradılan bu mərkəzlərdə ilk növbədə funksional qiymətləndirmə aparılmaqla, uşaqların gündəlik həyatda üzləşdikləri əqli və fiziki problemlərin aradan qaldırılması üçün aktiv terapiya və oyun terapiyası kimi müasir reabilitasiya üsulları tətbiq edilir. Uşaqlarda zəruri bacarıq (o cümlədən ünsiyyətqurma bacarığı) və vərdişlər formalaşdırılır, erkən müdaxilə və inkluziv təhsil xidmətləri göstərilir. Uşaqların ailələri ilə reabilitasiya, sosial, müvəkkillik, psixoloji və s. sahələrdə maarifləndirmə işləri aparılır. Məqsəd həmin uşaqların sosial reabilitasiyasına və öz həmyaşıdları ilə bərabər şəkildə cəmiyyətə inteqrasiyasına nail olunmasıdır.

**c)**

## Zorakılığa məruz qalan əlilliyi olan uşaqlara dəstək və təlimlər

75. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu əməkdaşları tərəfindən keçirilən təlimlərdə internat məktəbləri və inteqrasiya təlimli gimnaziyalarda məktəbəhazırlıq qrupları və ibtidai sinif müəllimlərinin iştirakı təmin edilmişdir.

76. Uşaqlarla iş sahəsində bilik və bacarıqların artırılması və uşaqlara göstərilən xidmətin keyfiyyətinin artırılması məqsədlə Təhsil Nazirliyinin tabeliyində olan (Bakı şəhərində yerləşən) dövlət uşaq müəssisələrinin tərbiyəçilərinə Uşaq hüquqları, Uşaq inkişafı, Əlilliyi olan uşaqlarla sosial, psixoloji və pedaqoji iş, Uşaq müdafiəsinin əsasları, Uşaq və yeniyetmələrin psixologiyası, Fərdi İnkişaf Planının hazırlanması, icrası və monitorinqi mövzularında təlimlər keçirilmişdir. Hazırda təlimdən keçmiş tərbiyəçilər təhkim olunduqları qrupun şagirdləri üçün fərdi inkişaf planı hazırlayırlar.

77. Bundan başqa, "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı"na əsasən "Məişət zorakılığının qarşısının alınması məqsədi ilə 2014-cü ildən başlayaraq, məişət zorakılığından zərər çəkmiş şəxslərə, o cümlədən uşaqlara, tibbi yardım göstərən səhiyyə müəssislərinin (Psixi Sağlamlıq Mərkəzi, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, 7 nömrəli Qadın Məsləhətxanası, 25 nömrəli Şəhər Poliklinikası , Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasıvə.s) mütəxəssisləri üçün Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və

İslahatlar Mərkəzi (İSİM) tərəfindən təlimlər keçirilmiş,əyani vəsaitlər paylanmışdir. Məişət zorakılığı qurbanları ilə işləyən tibb müəssisələrindən məsul şəxslər təyin edilmişlər.

78. Psixi Sağlamlıq Mərkəzinin əməkdaşları tərəfindən "İnam" telefon xətti vasitəsilə psixoloji xidmət və yardıma ehtiyacı olanlara müvafiq məlumatlar verilir, yönləndirmə və krizis müdaxilələri həyata keçirilir.

## Məlumatlılığın artırılması (maddə 8)

**a)**

### Maariflǝndirmǝ kompaniyaları

79. Əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsini nəzərdə tutan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununda infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması öz əksini tapmışdır.

80. Sənəddə əks olunduğu kimi, ağlabatan uyğunlaşdırmanın həyata keçirilməsinin əsas məqsədi əlilliyi olan şəxslər tərəfindən əsas insan hüquqlarının və azadlıqlarının digərləri ilə bərabər səviyyədə həyata keçirilməsinin təmin olunmasıdır. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlar, fiziki şəxslər tabeliklərində olan yol-nəqliyyat, rabitə, informasiya, mədəniyyət, təhsil, məişət və digər sosial infrastruktur obyektlərini əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırmalıdırlar.

81. Ağlabatan uyğunlaşdırmanın üç əsas prinsipi nəzərə alınmalıdır:

a. əlilliyi olan şəxslərin üzləşdiyi maneələrin aradan qaldırılması üçün uyğunlaşma və düzəlişlərin zəruriliyi və mümkünlüyü;
b. uyğunlaşma və düzəlişlərin həyata keçirilməsi üçün öhdəliyin nəzərə alınması;
c. uyğunlaşdırma öhdəliyinin fərdilik təbiətindən irəli gələrək konkret hallarda tələb olunması.

82. Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyi tərfindən "Əlillik qüsur deyil" mövzusunda nəfis tərtibatlı kitab nəşr edilmiş, iki sosial çarx hazırlanmış və nazirliyin sosial şəbəkələrindəki səhifələrində, eyni zamanda televiziya kanallarında yayımlanması təmin edilmişdir.

https://www.youtube.com/watch?v=v8_m64ED6b8

https://www.youtube.com/watch?v=mQTeFn2c-zo

https://www.youtube.com/watch?v=dFONi3jSTmg

83. Hazırlanmış çarxların əsas məqsədi cəmiyyətin diqqətini əlillik məsələlərinə yönəltmək, cəmiyyəti düzgün istiqamətdə maarifləndirmək və əlilliyi olan şəxslərin cəmiyyətin bərarbərhüquqlu üzvləri olması ideyalarını geniş təbliğ etməkdir.

84. "Əlillik qüsur deyil" kitab-albomda incəsənətin müxtəlif növləri ilə məşğul olan 60-a yaxın əlilliyi olan şəxs barədə məlumatlar və onların yaradıcılıq nümunələri yer alıb. Nəşrə, həmçinin Azərbaycanda yeni yaradılmış Boccia İdman Federasiyası və bu idman növünə maraq göstərən fiziki məhdudiyyətli insanlar, onların uğurları, ilk inklüziv ƏSA teatrı, onun yaradıcı heyəti, hazırladıqları tamaşalar barədə məlumatlar daxil edilib. 278 səhifəlik kitab-albomdakı mətnlər həm Azərbaycan, həm də ingilis dilində təqdim olunur.

85. Bu və digər məsələlərin əhatə olunduğu maarifləndirmə materialları Nazirliyin və onun sosial tərəfdaşlarının sosial şəbəkələri, kütləvi informasiya vasitələri, o cümlədən televiziya və ictimati nəqliyyatda (Metro və digər ictimai sərnişin daşıma vasitələrində nümayiş ) aktiv təbliğ və təşviq olunur.

86. Bununla yanaşı, ictimaiyyətə təqdim olunan materialların subtitr və surdotərcümə ilə təmin olunması məqsədilə də Nazirlik tərəfindən zəruri işlər görülür və bu istiqamətdə televiziya kanalları ilə əməkdaşlıq aparılır.

87. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2019-cu ilin "Nəsimi ili" elan olunması ilə əlaqədar Nazirliyin instagram səhifəsində əlilliyi olan şəxslər arasında rəsm müsabiqəsi təşkil edilib.

88. ƏSA Teatrı 2016-cı ilin sentyabr ayından ölkənin ilk və yeganə inklüziv teatrı kimi fəaliyyət göstərməyə başlamışdır. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına kömək etmək, əlilliyi olan və olmayan şəxslərin birgə fəaliyyətini təmin etmək, onların sosial və ictimai rifahını yüksəldərək incəsənətin digər sahələri ilə də məşğul olmalarına təşviq etmək ƏSA Teatrının əsas məqsədləridir. Qısa vaxt ərzində fəaliyyətə başlamasına baxmayaraq, ƏSA Teatrı uğurlu tamaşalarla çıxış etmiş və böyük ictimai rəğbət qazanmışdır.

89. 2018-ci ildən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ƏSA Teatrı ilə yaxından əməkdaşlıq etməyə başlamışdır. Bunun nəticəsi olaraq, 2018-ci ilin dekabr ayında Azərbaycan Dövlət Musiqili Teatrında "Göy quş" tamaşasının premyerası keçirilmişdir. 2019-cu ildə isə ƏSA Teatrı ilə birgə daha iki tamaşanın səhnələşdirilməsi nəzərdə tutulur.

90. İnsan Hüquqları üzrə Müvəkkil və onun regional mərkəzləri tərəfindən əlilliyi olan şəxslərin hüquqlarına dair, o cümlədən əlilliklə bağlı insan hüquqları yanaşması, ağlabatan uyğunlaşdırma, əlillik zəminində ayrı-seçkilik barədə ictimaiyyətə və özəl sektora ünvanlanmış müxtəlif maarifləndirmə kampaniyaları həyata keçirilərkən əlilliyi olan şəxslərin və onları təmsil edən təşkilatların bu kampaniyalarda iştirakı təmin edilmişdir.

91. Keçirilən bu kimi maarifləndirmə kampaniyalarında əlilliyi olan şəxslər tərəfindən əsas insan hüquqlarının və azadlıqlarının digərləri ilə bərabər səviyyədə həyata keçirilməsinin təmin olunması məqsədi ilə zəruri və mümkün uyğunlaşma və düzəlişlər edilməsini nəzərdə tutan ağlabatan uyğunlaşdırmanın təmin edilməsi, bu qəbildən olan insanların

cəmiyyət həyatında iştirakını məhdudlaşdıran fiziki və psixoloji maneələrin aradan qaldırılması sahəsində görülməsi zəruri olan işlər, habelə bu istiqamətdə əldə olunmuş uğurlar, əlilliyin anlayışı, əlillik terminologiyası, əlilliyə yanaşmada tibbi və sosial model anlayışlarının mahiyyəti, müvafiq Konvensiyanın müddəalarına uyğun olaraq insan hüquqlarına əsaslanan bir yanaşma kimi qəbul edilən sosial modelin üstün cəhətləri, Azərbaycanda tibbi modeldən sosial modelə keçid sahəsində görülən işlər, əlilliyi olan şəxslərin cəmiyyətin tam bərabərhüquqlu üzvləri olaraq qəbul olunması, onlara hörmət və ləyaqətlə davranılması, ayrı-seçkilikdən müdafiəsi, potensiallarının təbliğ olunmasının əhəmiyyəti və digər bu kimi məsələlər haqqında iştirakçılara ətraflı məlumat verilmişdir.

**b)**

### "e-Sosial" internet portalı

92. Məlumatlılığın artırılması və əhalinin maarifləndirilməsi sahəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Müdafiəsi Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlardan "e-sosial" internet portalı yaradılmış, əlilliyi olan şəxslərin bu portala daxil olaraq "şəxsi kabinet" vasitəsi ilə nazirliyin informasiya ehtiyatlarında və sistemlərində onlar barəsində formalaşmış və saxlanan məlumatlara çıxış imkanı əldə edilməsi, nazirliyin aidiyyatı qurumlarına müraciət və sorğular göndərilməsi, onlara təqdim edilən bütün elektron xidmətlərdən yararlanma imkanları təmin edilmişdir.

93. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən hesabat dövrü ərzində əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə məşğul olan QHT-lərin 113 layihəsi maliyyələşmiş və bu məqsədlə 1.006.800 AZN vəsait ayrılmışdır.

### Dövlət tərəfindən əlilliyi olan şəxslərin dəstəklənməsinə yönəlmiş tədbirlər

94. 2018-ci ildə Beynəlxalq Əlilliyi olan şəxslər günü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində (İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu, Qoşa qala qapısı tərəfdən girişdə) əlilliyi olan şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi – Yarmarkası keçirilib. Üç gün davam edən tədbirdə ölkəmizin müxtəlif bölgələrindən 250 nəfərdən çox əlilliyi olan şəxsin hörgü, rəsm, toxuma, xalçaçılıq, dulusçuluq-keramika məmulatları, ağac üzərində oyma, müxtəlif incəsənət və məişət nümunələri, bədii tikmələr və s. ibarət 1500-dən çox əl işi nümayiş olunur. Tədbirdə eyni zamanda əl işlərinin satışı təşkil olunub. Bu da əlilliyi olan şəxslərin yaradıcı əməyinin maddi baxımdan stimullaşdırılması məqsədi daşıyırdı.

95. Eləcə də, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda yerləşən "Elektra Events Hall"da sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin iştiarakı ilə "Bahar sevincləri" adlı sərgisi və konsert proqramı təşkil olunmuşdur. Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən sosial müəssisə sakinləri, ictimai birliklər, nazirliyin maliyyə dəstəyi ilə və himayəsində olan inklüziv teatr və yaradıcılıq birlikləri öz yaradıcılıq bacarıqlarını nümayiş etdiriblər. Təşkil olunan konsert proqramında isə gözdən əlilliyi olan şəxslər Gülnar Rəhimova, Seymur Əliyev və Gülnar Novruzova mahnılar ifa edib, sağlamlıq imkanları məhdud uşaqlardan, eləcə də daun və autizm sindromlu uşaqlardan,

eşitmə və nitq qabliyyəti məhdud uşaqlardan, əlilliyi olan şəxslərdən, hemofiliyalı uşaqlardan ibarət rəqs qruplarının çıxışları olub.

96. Qeyd etmək lazımdır ki, hər bir sosial müəssisədə sakinlərin yaradıcılıq meylləri nəzərə alınmaqla müxtəlif dərnəklər, təlim kursları təşkil olunub, onların müvafiq incəsənət sahələrində bacarıq və qabiliyyətləri inkişaf etdirilir. Həmçinin musiqi və rəqs təlimi kursları təşkil olunub, əlilliyi olan şəxslərdən ibarət musiqi və rəqs kollektivi yaradılıb, onlar üçün xüsusi rəqs və səhnə geyimləri və musiqi repertuarları hazırlanıb. Sosial müəssisələrdən və sığınacaqlardan olan uşaq və yeniyetmələr üçün mütəmadi olaraq xüsusi ekskursiyalar və təlim kursları təşkil olunur, onların düzgün tərbiyəsi, mənəvi inkişafı və cəmiyyətə inteqrasiya olunmaları üçün məqsədyönlü strategiya həyata keçirilir.

97. Autizm Spektr Pozuntusu (ASP) haqqında cəmiyyətin maarifləndirliməsi və eləcə də autizm sindiromlu uşaqların cəmiyyətə inteqrasiyası məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və "Birgə və Sağlam" İctimai Birliyi ilə birgə əməkdaşlıq edir və gələcəkdə özündə tibbi, təhsil və sosial istiqamətdə fəaliyyətləri birləşdirən Milli Autizm Mərkəzinin yaradılması barədə müzakirələr aparılır.

98. Bundan başqa, Heydər Əliyev Fondunun dəstəyi və "Uşaqların Xoşbəxt Gələcəyi" İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyi və "Ümid var" xeyriyyə könüllülərinin təşkilatçılığı ilə 31 may 2019-cu ildə Azərbaycanda ilk dəfə autizm sindromlu uşaqların I Autizm Mədəniyyət Festivalı təşkil olunub. Festivalda autizmli uşaqlar incəsənətin müxtəlif sahələrində istedadlarını nümayiş etdiriblər, pianoda və xor şəklində mahnılar ifa edərək "Biz də cəmiyyətin ayrılmaz parçasıyıq" mesajını veriblər.

99. Bundan başqa, əlilliyi olan şəxslərin bacarıq və qabliyyətlərinin tanınması,cəmiyyətə verdikləri töhfələrin təbliğ edilməsi və onların hüquqlarının müdafiəsi ilə bağlı əhalinin maarifləndirilməsi məqsədi ilə Nazirlik tərəfindən press relizlərin yayımlanması, nazirliyin əməkdaşlarının televiziya və radio kanallarına müsahibələri intensiv olaraq həyata keçirilir.

**c)**

## QHT-lərlə əməkdaşlıq

100. Azərbaycan Respublikasının BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının müddəalarının həyata keçirilməsi üzrə zəruri tədbirlərin əlaqələndirilməsinin təmin olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında aidiyyatı dövlət qurumları və əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarından ibarət İşçi Qrup yaradılmışdır. Konvensiyada nəzərdə tutulan müstəqil monitorinq funksiyalarını isə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) həyata keçirir. .

101. Əlilliyi olan şəxslərlə bağlı İnçeon Strategiyasının 2018-ci il və sonrakı dövr üçün indikatorları üzrə informasiya bazasının yaradılması ilə bağlı BMT-nin Asiya və Sakit okean regionu üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə həyata keçirilən əməkdaşlıq çərçivəsində UNESCAP-ın Sosial inkişaf departamentinin ekspertlərindən ibarət missiyası 2018-ci ilin 24-26 aprel tarixlərində Bakıda səfərdə olmuşdur.

102. Ölkəmizin İnçeon Strategiyasının hədəflərinə nail olunmasına dəstək məqsədi daşıyan bu layihənin məqsədi əlilliklə bağlı etibarlı, müqayisəli statistik məlumatların toplanmasını təmin edən milli statistika sisteminin təkmilləşdirilməsidir.

103. Səfər çərçivəsində ekspertlər bir sıra dövlət qurumlarında, eləcə də "Müstəqil həyat" İctimai Birliyində görüşlər keçirmişlər. Görüş əsnasında İnçeon Strategiyası ilə yanaşı, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları üzrə Konvensiya"sının Azərbaycanda icrası ilə bağlı əlilliyi olan şəxslərin təşkilatlarının rolu və Konvensiyada təsbit olunan əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsinə dair müddəaların ictimaiyyətdə yayılması məsələləri müzakirə edilmiş və mövzu ətrafında fikir mübadiləsi aparılmışdır.

104. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə hüquqi aktların qəbulunda və fəaliyyət istiqamətləri ilə bağlı ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin olunması məqsədilə Nazirlik yanında İctimai Şura yaradılıb. Əlillyi olan şəxslərin də təmisl olduğu QHT-lərin üzv olduğu İctimai şuranın tərkibində sosial xidmətlər, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası və reabilitasiyası məsələləri üzrə işçi qruplar fəaliyyət göstərir.

105. İnsan Hüquqları üzrə Müvəkkil ilə əlilliyi olan şəxsləri təmsil edən QHT-lər arasında səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Belə ki, bu qəbildən olan şəxsləri təmsil edən QHT-lər, habelə həmin təşkilatların koalisiyon qurum olan Azərbaycan Əlil Təşkilatları İttifaqı vasitəsilə Ombudsman yanında fəaliyyət göstərən Ekspertlər Şurasının və Biznes və İnsan hüquqları üzrə İşçi qrupunun işində fəal iştirak edirlər. Tez-tez mövcud problemlər və onların həlli yollarının müzakirəsinə həsr olunan birgə tədbirlər təşkil olunur və ümumi məsləhətləşmələr nəticəsində hazırlanan təkliflər aidiyyəti dövlət orqanlarına təqdim edilir.

106. Bundan əlavə, İnsan Hüquqları üzrə Müvəkkil tərəfindən Konvensiyanın icrası üzrə həyata keçirilən müstəqil monitorinq prosesində əlilliyi olan şəxsləri təmsil edən fəal QHT-lərin iştirakına şərait yaradılır.

## Müyəssərlik (maddə 9)

### a)

### Müyəssərliyin təmin edilməsi üzrə tədbirlər

107. Respublika ərazisində nəqliyyat infrastrukturu obyeklərinin layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin bu obyeklərdən istifadəsinin təmin edilməsi məqsədi ilə Az DTN 2.6-1 "Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması" və Sahədaxili Tikinti Normaları 62-91* "Əlilliyi olan şəxslərin və əhalinin azmobili qrupunun ehtiyacları nəzərə alınmaqla həyat mühitinin layihələndirilməsi" texniki normativ aktların müvafiq tələbləri rəhbər tutulur.

108. Qeyd olunan sənədlərlə əlilliyi olan şəxslərin piyada yolları və səkilərdə rahat və təhlükəsiz hərəkəti üçün müvafiq şəraitin yaradılması (panduslarla təchiz olunma, istirahət yerləri, sürüşmə əleyhinə tədbirlər, maneəyə yaxınlaşma barədə məlumatlandırılma

vasitələrinin quraşdırılması və s), əlilliyi olan şəxslərin şəxsi istifadəsində olan nəqliyyat vasitələri üçün dayanma və durma yerlərinin təşkili, əlilliyi olan şəxslərin daşayan ixtisaslaşdırılmış nəqliyyat vasitələrinin və avtobus dayanacaqlarının yerləşməsi və digər məsələlər tənzimlənir.

109. Əlilliyi olan piyadaların avtomobil yollarında təhlükəsiz və rahat hərəkətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş “Piyada zolağında hərəkətin svetoforla nizamlanması və avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan hallar”da əlilliyi olan şəxslərin kütləvi toplaşdığı obyektlərin ( tibb müəssisələri, reabilitasiya mərkəzləri, müvafiq cəmiyyətlər, həmçinin bu şəxslər üçün tikilmiş yaşayış binaları) yaxınlıqda olan piyada keçidlərində (gözdən əlilliyi olan piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün) svetoforun işıq siqnallarına səs siqnalının da əlavə edilərək piyada zolağında hərəkətin svetoforla nizamlanması nəzərdə tutulmuşdur.

110. Bakı Nəqliyyat Agentliyi tərəfindən əlilliyi olan şəxslərin piyada keçidlərindən rahat istifadə edə bilməsi üçün pandusların tikinti-quraşdırma işlərinə 09.12.2017-ci il tarixindən başlanılmışdır. Piyada müyəssərliyinin genişləndirilməsi məqsədi ilə ilkin olaraq, Bakı şəhərinin 6 rayonunda, 70 küçədə və 229 kəsişmədə pandusların tikinti-quraşdırması həyatə keçirilmiş, eyni zamanda 52 küçədə təhlükəsizlik tumbası, 33 küçədə və 162 kəsişmədə isə məhəccərlər quraşdırılmışdır.

111. Həmçinin, maarifləndirmə işləri çərçivəsində, avtomobilini səkilərdə qeyri-qanuni park edərək piyadaların, xüsusən də əlilliyi olan şəxslərin hərəkətinə mane olan sürücüləri ictimai qınağa cəlb etmək məqsədi ilə "Əngəl olmadığın müddətdə əngəlli deyiləm" sosial xarakterli videoçarx hazırlanıb ictimaiyyətə təqdim edilmişdir.

https://www.youtube.com/watch?v=wwgJZhF4nzU

112. Bununla yanaşı BNA-nın həyata keçirdiyi "Sovetski" layihəsi zamanı gözdən əlilliyi olan şəxslərin rahatlığı üçün səsli işıqfor quraşdırılmışdır və bu istiqamətdə işlər gələcəkdə Agentliyin həyata keçirəcəyi digər layihələrdə də nəzərdə tutulacaqdır.

113. "Əlil təşkilatları ittifaqı" Qeyri-hökumət təşkilatı da cəlb olunmaqla "Bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılması Qaydaları" hazırlanmışdır. Qaydalar bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılması qaydalarını müəyyən edir. Layihədə bina və qurğuların inşası, təmiri, yenidən qurulması, bərpası məqsədilə tikinti layihəsi hazırlanan zaman müyəssərliyin təmin edilməsi ilə bağlı dünya standartları əsasında normalar müəyyənləşdirilmişdir. Qaydalarda, layihə materiallarında nəzərə alınacaq memarlıq-planlaşdırma həllərinin, elementlərinin və layihə tədbirlərinin şərtləri göstərilmişdir.

114. Layihə aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq hökumətə təqdim edilmişdir.

**b)**

## Dövlət və özəl sektor üçün müyəssərlik və universal dizayn

115. “Şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikasi Prezidentinin 1 avqust 2018-ci il tarixli 226 nömrəli Fərmanına uyğun olaraq tikinti obyektlerinin tikintisinə və istismarına icazələrin verilməsini Bakı şəhərinin inzibati ərazisində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, digər inzibati ərazi vahidlərində isə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər. Odur ki, 01 avqust 2018-ci il tarixindən etibarən Bakı şəhəri üzrə tikintiyə icazə verilməsi ilə bağlı Komitəyə təqdim olunan hər bir tikinti layihələrində əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin edilməsi nəzərə alınır.

116. Eyni zamanda dövlət və ya özəl sektorun nüməyəndələrinin iştirakı ilə Komitə tərəfindən təşkil olunan görüşlər və ya tədbirlər zamanı tikintiyə icazə ilə bağlı Komitəyə təqdim olunacaq tikinti layihələrində əlilliyi olan şəxslər üçün müyəssərliyin nəzərə alınması tövsiyə olunur.

117. "Əlil təşkilatları ittifaqı" Qeyri-hökumət təşkilatı da cəlb olunmaqla "Bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılması Qaydaları" hazırlanmışdır. Qaydalar bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılması qaydalarını müəyyən edir. Layihədə bina və qurğuların inşası, təmiri, yenidən qurulması, bərpası məqsədilə tikinti layihəsi hazırlanan zaman müyəssərliyin təmin edilməsi ilə bağlı dünya standartları əsasında normalar müəyyənləşdirilmişdir. Qaydalarda, layihə materiallarında nəzərə alınacaq memarlıq-planlaşdırma həllərinin, elementlərinin və layihə tədbirlərinin şərtləri göstərilmişdir.

118. Layihə aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq hökumətə təqdim edilmişdir.

# Yaşamaq hüququ (maddə 10)

## Xüsusi müəssisələrdə yerləşdirilmiş əlilliyi olan şəxslərin ölüm sayı və bununla əlaqədar aparılmış təhqiqatlar barədə, eləcə də əlilliyi olan şəxslərin, xüsusilə də əqli və psixososial əlilliyi olan şəxslərin həyatının qorunması ilə bağlı görülən tədbirlər

Əlilliyi olan məhkum və həbs edilmiş şəxslərin ölüm halları

| İllər üzrə | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| I qrup | 1 | 1 | 1 | 1 | 4 |
| II qrup | 6 | 8 | 6 | 6 | 2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| III qrup | - | - | - | - | - |
| Cəmi | 7 | 9 | 7 | 7 | 6 |

Qeyd : Hər bir fakt üzrə prokurorluq orqanları tərəfindən araşdırmalar aparılmış, həmin şəxslərin xəstəlikdən vəfat etdikləri müəyyən edilmişdir.

119. Penitensiar müəssisələrdə məhkumlar arasında ölüm baş verdikdə, o cümlədən əlilliyi olan şəxslər də vəfat etdikdə meyit Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin əməkdaşları tərəfindən təşrih edilir və ölümün səbəbləri barədə patoloji-anatomik diaqnoz müəyyən edilərək ekspert rəyi verilir.

120. Əlilliyi olan məhkumların qeydiyyatı aparılmaqla, xüsusi saxlanma şəraitində müalicə olunmaları təmin edilir, protezlərə, digər tibbi-texniki və ortopedik ləvazimatlara ehtiyacı olanlar müəssisələrdə müayinələr keçirilməklə müəyyən edilir, aidiyyəti qurumlarla əməkdaşlıq gücləndirilir və əlilliyi olan məhkumların fərdi əmək infrastrukturu obyektlərindən istifadə edilməsinə müvafiq şərait yaradılır.

121. Penitensiar xidmətin cəzaçəkmə müəssisələri əlilliyi olan məhkumların cəzalarını çəkmələri məqsədilə xüsusi yatacaqlarla və digər tibbi-texniki vasitələrlə təmin edilmişdir. Müəssisələrin dəhlizlərində xüsusi tutacaqlar, hamamlarda xüsusi oturacaqlar, Tibb-sanitar hissənin, görüş və yataqxana binalarının girişlərinə panduslar quraşdırılmışdır. Əlilliyi olan məhkumların yataqxanaların 1-ci mərtəbəsində yerləşdirilməsi təmin edilmişdir. Müalicə müəssisəsinin cərrahiyə şöbəsində əlilliyi olan şəxslər üçün müvafiq şərait yaradılmışdır.

122. Eləcə də, İnsan Hüquqları üzrə Müvəkkilin təklifləri də nəzərə alınmaqla saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə bir sıra penitensiar müəssisələrdə müvafiq təmir-tikinti işləri aparılmış, həmin müəssisələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

123. Ombudsmanın təklifi nəzərə alınmaqla psixiatriya müəssisələrində müalicə olunan hər bir şəxsin sutka ərzində müvafiq normativə uyğun keyfiyyətli ərzaq ilə təminatına sərf olunan vəsaitin məbləği əhəmiyyətli dərəcədə artırılmışdır.

124. Əqli və psixososial əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi vəziyyətini diqqətdə saxlayan Ombudsman ruhi-əsəb müəssisələrinin binalarının yenidən qurulması və ya əsaslı təmir edilməsi, bu müəssisələrdə müalicə alan şəxslərin qida və tibbi təminatının daha da yaxşılaşdırılması, personalın sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Səhiyyə Nazirliyinə təkliflər təqdim etmişdir.

## Riskli vəziyyətlər və fövqəladə humanitar hallar (maddə 11)

125. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən riskli vəziyyətlərdə əlilliyi olan şəxslərin qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə, eləcə də riskli vəziyyətlərlə bağlı preventiv tədbirlər görülür. Fövqəladə hallar zamanı əhalinin, o

cümlədən əlilliyi olan şəxslərin kütləvi xəbərdar edilməsi məqsədi ilə "SMS xəbərdarlıq sistemi"ndən istifadə olunur. Bundan əlavə, hazırda əlilliyi olan şəxslərin "112" qaynar xəttinə müraciətini təmin etmək məqsədi ilə beynəlxalq təcrübə öyrənilir.

## Qanun qarşısında bərabərlik (maddə 12)

126. Mülki Məcəllənin 39-cu maddəsinə əsasən sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin xahişi ilə onun üzərində patronaj təyin edilə bilər və patronaja həmin şəxsin tələbi ilə xitam verilir. Patronaj təyin edilməsi fiziki şəxsin hüquqlarının məhdudlaşdırılmasına səbəb olmur.

127. Belə ki, patron (köməkçi) fiziki şəxsin razılığı ilə qəyyumluq və himayəçəlik orqanı tərəfindən təyin edilir və fiziki şəxslə bağlanmış tapşırıq və ya etibarnamə ilə idarəetmə müqaviləsinə əsasən ona mənsub əmlak barəsində sərəncam verir. Məişət tələbatının saxlanmasına yönəldilən məişət əqdlərini və başqa əqdləri patron (köməkçi) fiziki şəxsin razılığı ilə bağlayır.

128. Eyni zamanda, Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 22-ci hissəsinə əsasən şəxs əqdi, ərizəni və ya başqa sənədi fiziki məhdudiyyətinə, xəstəliyinə və ya hər hansı başqa səbəbə görə özü imzalaya bilmədikdə əqdi, ərizəni və ya digər sənədi onun tapşırığı ilə, onun iştirakı ilə və notariusun, eləcə də xüsusi notariusun köməkçisinin iştirakı ilə başqa şəxs imzalaya bilər. Belə halda, notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxsin sənədi özünün imzalaya bilmədiyinin səbəbi göstərilməlidir.

129. Əgər notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxs savadsız və gözdən əlilliyi olan şəxs olduğu halda, notarius ona sənədin mətnini oxumağa və bu barədə sənəddə qeyd yazmağa borculdur.

130. Əgər notariat hərəkətinin aparılması üçün müraciət etmiş görmə, eşitmə və nitq qabliyyəti məhdud olan şəxs savadsızdırsa, notariat hərəkəti aparılarkən onu başa salmağı bacaran savadlı şəxs mütləq iştirak etməli və öz imzası ilə təsdiq etməlidir ki, əqdin, ərizənin və ya digər sənədin məzmunu əqddə, ərizədə və digər sənəddə iştirak edən görmə, eşitmə və nitq qabliyyəti məhdud olan şəxsin iradəsinə uyğundur.

131. Mülki Məcəllədə və sözügedən Təlimatda əlilliyi olan şəxslərə münasibətdə dəstəkləyici qərar qəbul etmə prinsipi öz əskini tapmışdır.

## Ədliyyə sisteminin əlçatanlığı (maddə 13)

132. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsinə əsasən əlilliyi olan şəxslərin hüquq və qanuni mənafelərini inzibati qaydada və məhkəmə qaydasında müdafiə etmək hüququ vardır.

133. Qanunun 34-cü maddəsinə uyğun olaraq inzibati icraatda və məhkəmə icraatında iştirak edən və ixtisaslaşmış vasitəçilərin köməyinə ehtiyacı olan əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçilərin və peşəkar surdo tərcüməçiləri) xidmətləri ilə təmin edilirlər.

134. "Məhkəmə-hüquq sistemində islahatatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında məhkəmə-hüquq sistemində kompleks qanunverici, institusional və praktiki tədbirlərin görülməsini, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin tətbiqi, məhkəmə qərarlarının icrasının sürətləndirilməsi məqsədilə bu sahədə qanunvericiliyin ətraflı təhlil edilməsi, Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, mediasiya prosesinin və beynəlxalq arbitraj prosedurlarının təşviqi, məhkəmə qərarlarının icrası və məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmlərinin tətbiqi təcrübəsinin öyrənilməsi və s. nəzərdə tutulur.

135. Məhkəmələrin əlilliyi olan şəxslər üçün müyəssərliyinin təmin edilməsi üçün 2010-2018-ci illər ərzində Azərbaycan Respublikası Hökumətinin və Dünya Bankının birgə icra etdikləri layihələr çərçivəsində, həmçinin dövlət büdcəsi hesabına inşa edilmiş məhkəmə binalarında BMT-nin Əlilliyi olan şəxslərin Hüquqları haqqında Konvensiyasına uyğun olaraq onların sərbəst hərəkəti üçün bütün şərait yaradılmış, o cümlədən gözdən əlilliyi olan şəxslər üçün döşəmələrdə taktil cığırlar salınmış, qapıların üzərinə yazılar vurulmuş, bir sıra çoxmərtəbəli binalarda əlilliyi olan şəxslərin daxil olması üçün qaldırıcı qurğular quraşdırılmışdır.

136. Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin yerləşdiyi inzibati binada yaradılmış yeni xidmət mərkəzində əlil arabaları üçün xüsusi liftin, şəraiti imkan verən yerli qeydiyyat və notariat qurumlarında isə rampaların quraşdırılması təmin edilmişdir.

137. Həmçinin, nazirliyin yeni rəsmi internet saytında və dövlət xidmətləri bölməsində görmə qabiliyyəti zəif olan şəxslər üçün ayrıca versiya yaradılmışdır.

138. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun 15.1.15-ci maddəsinə əsasən həbs edilmiş şəxslərin həbsdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı, Cəzaların İcrası Məcəlləsinin 14-cü maddəsinə əsasən isə məhkumların təklif, ərizə və şikayətlərlə müraciət etmək hüququ vardır.

139. Konvensiyanın icrası ilə əlaqədar məhkəmə sistemində hakimlərin və digər mütəxəssislərin hazırlanması üzrə bildirilir ki, Ədliyyə Akademiyasında təşkil edilmiş icbari təlim və ixtisasartırma kurslarının proqramlarına müvafiq mövzuda mühazirələr daxil edilərək tədris edilmişdir.

140. Belə ki, 2017-2018-ci illər ərzində təşkil edilmiş hakimliyə namizədlərin ilkin hazırlıq kursunun, ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərin icbarı təlimlərinin, Penitensiar xidmətdə orta rəis heyətinə qulluğa qəbul edilən namizədlərin icbari təlim kurslarının, Məhkəmə ekspertizası mərkəzinin əməkdaşlarının ixtisasartırma kurslarının, Tibb xidmətinə qulluğa yeni təyin edilmiş Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin məzunlarının hüquqi tədris kurslarının, Hüquq

klinikasının tədris proqramında "Xüsusi yanaşma tələb edən məhkumlar (yetkinlik yaşına çatmayanlar, qadınlar, əlilliyi olan şəxslər, əcnəbilər və ahıllar) barədə azadlıqdan məhrum etmə cəzasının icrası xüsusiyyətləri", "Ayrı-ayrı qruplara daxil olan insanların hüquqlarının müdafiəsinin xüsusiyyətləri", "Avropa İnsan Hüquqları Konvensiyasında ayrı-seçkiliyin qadağan olunması və milli qanunvericilik", "Avropa İnsan Hüquqları Konvensiyasına görə ayrı-seçkiliyin qadağan olunması (14-cü maddə)" kimi mühazirələr daxil edilərək tədris edilmişdir.

141. 2019-cu ilin may ayında 37 hakim üçün təşkil edilmiş ixtisasartırma kursunda “Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi (Ayrı-seçkiliyin qadağan edilməsi)” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiya” kimi mövzularda təlimlər keçirilmişdir.

## Azadlıq və şəxsi toxunulmazlıq (maddə 14)

142. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Əhalinin sağlamlığın qorunması və Uşaq hüquqları haqqında qanunlarında əqli, psixososial və eşitmə əlilliyi olan şəxslərin əllillikləri və ya müəssisələrdə olmaları səbəbinə görə onların azadlıqdan məhrum edilməsi ilə bağlı müddəalar mövcud deyildir.

143. Azərbaycan Respublikası Avropa Şurasının insan hüquqları və ləyaqətinin müdafiəsi Konvensiyasına Əlavə Protokol Layihəsinə (Biologiya və Tibbin tətbiqi: İnsan hüquqları və biotibb konvensiyası, ETS № 164) qoşulmamışdır.

## İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan azadolma (maddə 15)

144. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinə əsasən dövlət əlilliyi olan şəxslərin işgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara məruz qalmamasına, onların yaşayış yerində və yaşayış yerindən kənarda istismarın, zorakılığın, təhqirin bütün formalarından müdafiəsinə, şəxsi həyatının toxunulmazlığına təminat verir.

145. Penitensiar müəssisələrdə psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbirlər həyata keçirilmir. Qanunvericiliyə istinadən məhkəmə qərarına əsasən belə şəxslərin müayinə və müalicəsi Səhiyyə Nazirliyinin 1 saylı Psixiatriya Xəstəxanasında həyata keçirilir.

146. Penitensiar müəssisələrdə məhkumlara psixiatrik yardım göstərilir. TSH-larda (Tibb-sanitariya hissələri) işləyən psixiatrlar tərəfindən psixi problemi yaranmış şəxslərə müvafiq tibbi yardımlar göstərilir. Stasionar şəraitdə müalicə zərurəti yarandıqda onlar MM-in psixiatriya şöbəsində müalicə olunurlar. Həmin şəxslər müalicə dövründə Səhiyyə Nazirliyinin yüksək ixtisaslı psixiatrları tərəfindən konsultasiya edilirlər. Psixi xəstəliyə görə əlilliyi olan şəxslər də digərləri kimi qeyd olunan psixiatrik yardımdan istifadə etmək imkanına malikdirlər.

147. 2014-2018-ci illər üzrə əlilliklə bağlı Müalicə müəssisələrinin tibb xidməti Həkim Məsləhət Komissiyaları tərəfindən Tibbi-sosial ekspert komissiyalarına (TSEK) 1771 müraciət olunub, onlardan 27-nə I dərəcə, 844-nə II dərəcə, 223-nə III dərəcə əlillik müəyyən edilmiş, 677-nə imtina edilmişdir.

148. İnsan Hüquqları üzrə Müvəkkilin müstəqil monitorinq və milli preventiv mexanizmi kimi fəaliyyəti çərçivəsində penitensiar, psixonevroloji sosial xidmət və psixiatriya müəssisələrində həyata keçirdiyi monitorinq və başçəkmələr zamanı qeyd olunan neqativ hallara rast gəlinməmişdir.

149. BMT-nin Özbaşına həbslər üzrə İşçi qrupunun 2016-cı ildə Azərbaycana səfəri zamanı Penitensiar Xidmətin 5 müəssisəsinə (Bakı və 2 saylı istintaq təcridxanaları, 2, 4 saylı cəzaçəkmə müəssisələri, Tərbiyə müəssisəsi) başçəkmə həyata keçirmişdir.

150. İşçi qrupunun hesabatında qeyd olunan tövsiyələr üzrə müvafiq işlər görülmüş və aidiyyəti üzrə təqdim edilmişdir.

151. Qeyd olunmalıdır ki, İşgəncələrə qarşı Avropa Komitəsinin (CPT) tövsiyəsinə uyğun olaraq ilkin müayinə zamanı xəsarət aşkar olunmuş hər bir şəxs bir neçə gün sonra təkrarən tibbi-sanitar hissənin həkimləri tərəfindən qəbul edilərək xəsarətlərin baş vermə səbəbinin bir daha araşdırılması, istintaqa və ya məhkəməyə göndərildikdən sonra müəssisəyə qaytarıldıqda həmin şəxsin təkrarən tibb işçisi tərəfindən qəbul edilməsi və bədən səthində yeni xəsarətlər aşkar olunduğu halda tibbi kitabçada qeydlər aparılaraq məlumatın müvafiq qaydada ötürülməsi barədə göstərişlər verilmişdir.

152. Tibbi müayinə zamanı müəyyən edilən işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar nəticəsində törədildiyi güman edilən bədən xəsarətləri barədə yazılı məlumatlar müvafiq araşdırma aparılması üçün aidiyyəti prokurorluq orqanına göndərilir.

153. Penitensiar müəssisələrin girişində və ərazisində işgəncə və digər pis rəftar, habelə korrupsiya halları ilə bağlı məlumat verilməsi məqsədi ilə Xidmətin "Qaynar xətti"nin əlaqə telefonlarını əks etdirən lövhəciklər asılmışdır. Bu hallar barədə daxil olmuş müraciətlərlə bağlı aparılmış xidməti araşdırmalar zamanı cinayət tərkibi müəyyən edildikdə toplanmış materiallar prokurorluq orqanlarına təqdim edilir.

154. Eyni zamanda, qanunvericiliklə məhkumların hüquqlarının təmin olunması və pis rəftarın profilaktikası məqsədilə Ombudsman, onun Milli preventiv qrupunun üzvlərinə, Ədliyyə Naziri yanında İctimai Komitə, Beynəlxalq Qızıl Xaç Komitəsi nümayəndələrinə istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən penitensiar müəssisələrə daxil olma imkanları yaradılmışdır.

155. Həbs edilmiş şəxslər və məhkumlar müvafiq qanunvericiliyə uyğun olaraq yaxın qohumları, habelə onlar üçün maraq kəsb edən digər şəxslərlə, eləcə də vəkilləri ilə mütəmadi görüşür, senzurasız yazışır, həftədə iki dəfə telefon danışığı hüququndan istifadə edirlər. Bu hüquqlar onların işgəncə, qeyri-insani və pis rəftardan müdafiə üçün kifayət qədər əhəmiyyətli vasitələrdir.

156. Son 5 il ərzində əlilliyi olan məhkumlar tərəfindən pis rəftarla bağlı müraciət daxil olmamışdır.

157. İnsan Hüquqları üzrə Müvəkkilin müstəqil monitorinq və milli preventiv mexanizmi kimi fəaliyyəti çərçivəsində müvafiq müəssisələrə müntəzəm səfərlər edilir, orada saxlanılanlara, o cümlədən əlilliyi olan şəxslərə hüquqları izah olunur və şikayət mexanizmləri barədə məlumat verilir. Son illər ərzində ölkəmizdə həyata keçirilən qanunvericilik islahatları ilə yanaşı, həm də bu sahədə təcrübənin təkmilləşdirilməsi müşahidə olunur.

158. Qanunvericilikdə nəzərdə tutulmuş bütün hüquqlardan istifadə etmək üçün şəraitin yaradılması Ombudsman təsisatı tərəfindən həyata keçirilən monitorinq əsasında təhlil edilir və müşahidə olunan çətinliklərin müvafiq qurumlar tərəfindən dərhal həll edilməsi tələb olunur. Məsələn, həbs edildiyi müəssisədə onların müalicəsi mümkün olmadıqda, mülki xəstəxanalara yerləşdirilməsi üçün sənədlərin hazırlanması və effektiv istintaq aparmaq üçün Baş Prokurorluğun Aparatına azadlıq hüququndan və digər hüquqlardan istifadə etməkdə iddia edilən pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görülməsi barədə müraciət edilir.

159. Ombudsmanın fəaliyyəti işgəncə və pis rəftara şərait yaradan halları pisləməklə məhdudlaşmır, qarşısı alınan tədbirlərin gücləndirilməsi məqsədilə görülməli işlərlə bağlı müvafiq təsisatlara tövsiyələr verilir, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, onları birləşdirən İctimai Komitə və İctimai Şuralar, habelə digər qurumlarla əməkdaşlıqda bu məsələlər və preventiv yanaşmalar diqqətdə saxlanılır.

## İstismar, zorakılıq və təhqirdən azadlıq (maddə 16)

### Probasiya xidməti

160. Azərbaycan Respublikasının Prezidenti 10 fevral 2017-ci il tarixində "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Hüquq mühafizə orqanlarını üçün "yol xəritəsi" rolunu daşıyan Sərəncama əsasən ötən dövrdə cinayət ədliyyəsi qanunvericiliyinə cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan prosessual məcburiyyət tədbirlərinin və cəzaların geniş tətbiqinə imkan verən mühüm dəyişikliklər edilmiş, alternativ cəzaların icrasına effektiv nəzarətin və bu sahədə idarəetmənin daha səmərəli təşkil edilməsi məqsədilə Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyəti təmin olunmuş, elektron nəzarət vasitələrinin səmərəli istifadəsinə başlanılmışdır.

161. 2019-cu ilin 01 yanvar tarixinə olan məlumata əsasən Probasiya xidmətinin qeydiyyatından götürülmüş əlilliyi olan məhkumların cəmi sayı 214 nəfərdir.

162. 2018-ci il ərzində probasiya nəzarəti tətbiq edilmiş əlilliyi olan məhkumların islahına, reabilitasiyasına və sosial adaptasiyasına yönəlmiş və qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər keçirilmiş və 7 məhkumun işlə təmin edilməsinə və 1 nəfərin sosial yardım almasına köməklik göstərilmiş, 10 məhkum isə hüquqi və psixoloji yardımla təmin edilmişdir.

163. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanuna və Cəzaların İcrası Məcəlləsində 17 may 2016-ci il tarixində, habelə həbs yerlərinin, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına edilmiş dəyişikliklərə əsasən həbs edilmiş şəxslərə və məhkumlara tənbeh tədbirlərindən onların Ədliyyə Nazirliyinə və məhkəməyə şikayət etmək hüquqları vardır.

164. 14 iyun 2016-cı il tarixdə qanunvericiliyə edilmiş daha bir dəyişikliyə əsasən şikayətlə bağlı müraciətlərin qəbul edilməsi, göndərilməsi və baxılması ilə bağlı tələblərin pozulmasına, habelə müraciətə və ya təqibə görə Penitensiar xidmət əməkdaşları üçün inzibati-hüquqi məsuliyyət müəyyən edilmişdir.

165. Respublika üzrə əlilliyi olan şəxslərə qarşı 2014-cü ildə iki cinayət faktı (zərərçəkən 2 qadın) qeydə alınmışdır (0.009%). Həmin faktlar üzrə başlanmış cinayət işlərindən biri məhkəməyə göndərilmiş, bir işin icraatına isə Cinayət Prosesual Məcəllənin 39.1.2-ci (əməldə cinayət tərkibi olmadıqda) maddəsinə əsasən xitam verilmişdir. 2015-ci ildə bir cinayət faktı (zərərçəkən bir kişi) qeydə alınmış (0.004%) və işin icraatına Cinayət Prosesual Məcəllənin 40.2.2-ci (zərər çəkmiş şəxslə barışdıqda) maddəsinə əsasən xitam verilmişdir. 2016-cı ildə bir cinayət faktı (zərərçəkən bir kişi) qeydə alınaraq (0.004%) iş məhkəməyə göndərilmişdir. 2017-ci ildə cinayət faktı qeydə alınmamışdır. 2018-ci ildə iki cinayət faktı (zərərçəkən 2 kişi) qeydə alınmış (0.0008%) və hər iki iş məhkəməyə göndərilmişdir.

166. İnsan Hüquqları üzrə Müvəkkil və onun tapşırığı əsasında Aparatın əməkdaşları, o cümlədən İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun (MPQ) üzvlərinin də iştirak etdiyi monitorinq və başçəkmələr zamanı saxlanma şəraiti, reabilitasiya otaqları, qidalanma, asudə vaxtının təşkili məsələləri də yerində yoxlanılmışdır. Bundan əlavə rəftar məsələlərinin araşdırılması məqsədilə təhsil, səhiyyə, penitensiar və sosial xidmət müəssisələrdəki əlilliyi olan şəxslər, o cümlədən uşaqlar, qadınlar, ahıllar, habelə müəssisə rəhbərliyi, sosial işçilər, müəllimlər, tibb işçiləri ilə fərdi və hüquqi maarifləndirici söhbətlər əsasında mövcud vəziyyət öyrənilmişdir. Bu zaman onlar əlilliyi olan şəxslərin vəziyyəti ilə maraqlanmış, sosial-məişət problemlərinin, sağlamlıq və digər hüquqlarının təmini ilə bağlı məsələlərin həlli üzrə məsul şəxslərə öz tapşırıq və tövsiyələrini vermiş, eyni zamanda bu qəbildən olan insanların hüquqi cəhətdən maarifləndirilməsi, onlara qarşı hər hansı bir ayrı-seçkilik, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kimi hüquqpozmalara yol verilmiş olarsa, həmin neqativ halların aradan qaldırılması istiqamətində də zəruri tədbirlər görülmüşdür.

## Şəxsi toxunulmazlığın qorunması (maddə 17)

167. Azərbaycan Respublikasının Konstitusiyaya əsasən özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

168. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanuna əsasən dövlət əlilliyi olan şəxslərin işgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara məruz qalmamasına, onların yaşayış yerində və yaşayış yerindən kənarda

istismarın, zorakılığın, təhqirin bütün formalarından müdafiəsinə, şəxsi həyatının toxunulmazlığına təminat verir.

169. Əlilliyi olan şəxslərin hüquq və qanuni mənafelərini inzibati qaydada və məhkəmə qaydasında müdafiə etmək hüququ vardır.

170. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etməyə, şəxsin razılığı olmadan onun üzərində tibbi sterilizasiyaya, qanunsuz olaraq biotibbi tədqiqatlar aparmağa və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etməyə, qanunsuz abort etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur və təbii ki, bu normalar cəmiyyətin bərabərhüquqlu subyekti olan əlilliyi olan şəxsələrə, o cümlədən bu qəbildən olan qadınlara da şamil edilir.

171. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununa görə psixiatriya yardımı məlumatlandırılmış razılıq əsasında həyata keçirilir. Bu razılıq hədə-qorxu və zor tətbiq edilmədən alınır, yazılı formada sənədləşdirilir, pasiyentin özü və ya onun qanuni nümayəndəsi və həkim-psixiatr tərəfindən imzalanır.

172. Psixiatriya stasionarında qeyri-könüllü hospitallaşdırılmış pasiyentin müalicəsi məlumatlandırılmış razılıq olmadan aparıla bilər.

173. Qeyd etmək lazımdır ki, məlumatlandırılmış razılıq - pasiyentin və ya onun qanuni nümayəndəsinin müalicə haqqında könüllü qərar qəbul etdiyini, müalicənin məqsədləri və faydası, müalicə tədbirlərinin həcmi, müddəti və metodu, ehtimal olunan risklər, həmçinin müalicədən imtina və onun dayandırılması imkanı barədə ona təqdim edilmiş məlumatı başa düşdüyünü bildirməsidir.

174. İnsan Hüquqları üzrə Müvəkkilin milli insan hüquqları institutu kimi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada nəzərdə tutulmuş bu Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi ilə bağlı müstəqil mexanizmin, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının icrası çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən psixiatriya, xüsusi təhsil, sosial və penitensiar xidmət müəssisələrinə, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə həyata keçirilən monitorinq və başçəkmələr zamanı əlilliyi olan şəxslərin şəxsi toxunulmazlıq hüququnun, ümumilikdə isə müraciətlərin araşdırılması və təmin edilməsi ilə bağlı zəruri preventiv tədbirlər görülür.

175. Bundan əlavə ölkədə yaşayan hər bir əlilliyi olan şəxsin fiziki və psixi toxunulmazlığına başqa şəxslərlə bərabər səviyyədə hörmət olunması hüququna malik olması və bu hüququn səmərəli təmin olunmasının təbliği ilə bağlı maarifləndirə işi aparılır.

176. Penitensiar müəssisələrdə saxlanılan şəxslərin üzərində qanunvericiliyin tələblərinə uyğun olaraq nəzarət təşkil edilir. Hər bir əlilliyi olan məhkum müəssisəyə daxil olduğu gündən ona Daxili intizam qaydalarının tələbləri, birgə yaşayış qaydalarına hörmətlə yanaşmalı olduğu izah olunur və bu qaydaların pozulmasına görə məsuliyyət barədə məlumat verilir. Onun təhkim olunduğu tərbiyə işinin təşkili xidmətinin əməkdaşı tərəfindən

həmin məhkuma islah tədbirləri planı hazırlanır və ardıcıllıqla icra olunur. Məhkumlar arasında zorakılıq hallarının qarşısının alınması məqsədilə profilaktik və digər tədbirlər həyata keçirilir. Əlilliyi olan məhkumun həyat və sağlamlığına təhlükə olması barədə daxil olmuş hər bir müraciət və ya məlumat dərhal araşdırılır, məhkumun təhlükəsizliyi təmin olunur.

177. Məhkumun həyatına, sağlamlığına, yaxud şəxsiyyətinə qarşı digər məhkumlar tərəfindən və ya başqa şəxslər tərəfindən təhlükə yaranarsa o, dərhal cəzaçəkmə müəssisəsinin ərazisində yerləşən xüsusi ayrılmış, təcrid olunmuş və mühafizə edilən otağa keçirilir. Əgər təhlükə aradan qalxmazsa, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən məhkumun təhlükəsizliyini təmin etmək məqsədilə digər real tədbirlər görülür. Belə tədbirlərdən biri də məhkumun eyni rejimli bir cəzaçəkmə müəssisəsindən digərinə keçirilməsidir.

178. Digər məhkumlara qarşı zorakılıq hallarına meyilli olan məhkumlar nəzarətə götürülür. Onların hərəkətlərində müəssisənin daxili intizam qaydalarının pozulması halları müəyyən edilərsə, barələrində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tənbeh tədbirləri tətbiq edilir. Bu qaydaları qərəzli surətdə pozan məhkumlar müəssisə rəhbərliyinin təqdimatına əsasən məhkəmənin qərarı ilə həbsxanaya keçirilə bilərlər.

179. Məhkumlar tərəfindən zorakılıq halları barədə Ədliyyə Nazirliyi və Penitensiar xidmət rəhbərliyinə məlumat verilir və ilkin araşdırma materialları hüquqi qiymət verilməsi məqsədilə aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına göndərilir.

180. Əlilliyi olan məhkumların yaxşılaşdırılmış maddi-məişət şəraiti ilə təmin olunmaq və onlar üçün yeməyin xüsusi normalarının müəyyən edilməsi, ciddi saxlanma şəraitinə keçirilə bilməmək, əlavə olaraq ayda on beş manat miqdarında ərzaq məhsulları və ən zəruri mallar əldə etmək, bağlama, sovqat və ya banedrol almaq, könüllülük əsasında işləmək, peşə təhsilinə və hazırlığına və ümumi təhsilə öz arzularına görə cəlb edilmək və penitensiar müəssələrdə cəza çəkmədən azad edilən şəxslərin sosial adaptasiyası ilə əlaqədar öz ərizələri və cəzaçəkmə müəssisəsi müdiriyyətinin təqdimatı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən reabilitasiya müəssisəsinə və qocalar evinə göndərilmək kimi imtiyazları vardır.

181. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanunun 25.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar, ağır xəstəlikdən əziyyət çəkənlər (bu barədə tibbi rəy olduqda), I və ya II dərəcə əlilliyi olan şəxslər, hamilə qadınlar, habelə yanında 3 yaşınadək uşağı olan qadınlar say məhdudiyyəti olmadan bağlama, sovqat və banderol ala bilərlər.

182. Həmin Qanunun 43.2.2-ci maddəsinə əsasən qrup halında və ya odlu silah işlətməklə basqın edildiyi, o cümlədən silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, xüsusi vasitələr və ya odlu silah qadınlara, azyaşlılara, yanında azyaşlı uşaqlar olanalara, əlilliyi olan yaxud digər fiziki və ya psixi pozuntuları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı və ya kənar şəxslərin zərər çəkə biləcəyi yerlərdə tətbiq edilməməlidir.

## Müstəqil yaşamaq və cəmiyyətin həyatında iştirak (maddə 19)

### İnklüziv təhsil

183. Azərbaycan Respublikası "Təhsil haqqında" Qanuna əsasən dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

184. Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il 1155 nömrəli Sərəncamı ilə 2019/2020-ci tədris ilindən etibarən ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri dövlət vəsaiti hesabına ödəniləcək.

185. Təhsil Nazirliyinin müvafiq əmri ilə 2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların (sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar) ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır.

186. Layihə çərçivəsində inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə (220, 138, 252 və 202 nömrəli məktəb) uğurla sınaqdan keçirilir. 4 pilot məktəbdə ümumilikdə (1-4-cü siniflər üzrə) 54 nəfər sağlamlıq imkanları məhdud şəxs inklüziv təhsilə cəlb olunmuşdur.

187. İbtidai təhsil səviyyəsində inklüziv təhsilin tətbiqi üzrə fəaliyyət planına əsasən, pilot məktəblərin direktorları, eksperimental siniflərin müəllimləri, xüsusi təhsil üzrə mütəxəssisləri üçün Almaniyada inklüziv təhsil üzrə təlim səfəri təşkil edilmiş və Bakıda onlara Almaniyanın Oldenburq Universitetinin 4 nəfərdən ibarət professor heyəti tərəfindən iki həftəlik təlim keçirilmişdir.

188. Seçim prosesi üçün məktəblərin yerləşdiyi ərazidə yaşayan əlilliyi olan uşaqların (sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar) valideynlərinə xüsusi və inklüziv təhsil üzrə maarifləndirici seminarlar keçirilmiş, həmin məktəblərdə loqopedik xidmət yaradılmış və infrastrukturun sağlamlıq imkanları məhdud uşaqlar üçün müyəssərliyin təmin edilməsi məqsədi ilə təmir işləri aparılmışdır.

189. Layihə çərçivəsində ölkədə ilk dəfə olaraq ICF-CY və SON-R 2 ½ - 7 qeyri-verbal testlərdən istifadə edilərək sağlamlıq imkanları məhdud uşaqların xüsusi təhsil ehtiyaclarının qiymətləndirilməsi həyata keçirilmiş, onlar üçün tədris ili ərzində 2 dəfə yenilənən Fərdi Tədris Planı hazırlanmışdır.

190. "İbtidai təhsil səviyyəsində inklüziv təhsilin tətbiqi" layihəsi Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə icra edildiyindən və 2018 - 2019-cu tədris ilinin sonunda layihənin müddəti bitdikdən sonra prosesin davamı Təhsil İdarəsi tərəfindən həyata keçiriləçəkdir.

191. 8-18 yanvar 2019-cü il tarixlərlərində layihənin icrasının qiymətləndirilməsi üçün BMT-nin Uşaq Fondunun (UNICEF) beynəlxalq məsləhətçi (Khumar Kalplana) tərəfindən 4 pilot məktəbdə monitorinqlər keçirilmişdir. Monitorinqin nəticələrinin təhlilinə əsasən, ekspert tərəfindən layihənin icrası müsbət qiymətləndirilmişdir.

192. 2018-2019-cu tədris ilində ümumi təyinatlı təhsil müəssisələrində xüsusi təhsil siniflərində rayon/şəhər təhsil şöbəsi/idarəsi tərəfindən sağlamlıq imkanları məhdud şəxslər üçün 86 sinif açılmışdır. Ölkə üzrə xüsusi təhsil sinfində təhsil alan şagirdlərin ümumi sayı 477 nəfərdir.

## Fərdi hərəkət etmə (maddə 20)

### Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı (2019-2023)

193. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2018-ci il tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı" layihəsinin 7.2.3.1.4 və 7.4.4.4 yarımbəndlərində yol-nəqliyyat infrastukturunun əlilliyi olan şəxslər üçün maneəsiz müyəssərliyinin təmin edilməsi məqsədi ilə əlilliyi olan şəxslərin yollarda sərbəst hərəkət imkanlarının yaradılması (piyada keçidlərinin ayaqla hiss edilə biləcək qabarıq elementlərlə, işıqforların səs siqnalı ilə təchiz edilməsi və s.), tikintisi və təmiri nəzərdə tutulan avtomobil yollarının əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması, eləcə də əlilliyi olan şəxslərin sürücülük vəsiqəsi alması qaydalarının hazırlanması və bununla bağlı təlim-tədris prosesinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

194. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentiyabr tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda müntəzəm şəhərdaxili (rayondaxili) sərnişin daşınmalarında istifadə edilən avtobus salonunun qabaq hissəsində əlilliyi olan şəxslər üçün yerlərin xüsusi işarələnməsi tələbi, şəhərdaxili avtobuslarda əlilliyi olan şəxslər nəzərdə tutulmuş xüsusi oturacaq yerlərinin onların tələbi ilə boşaldılması, gediş biletlərinin kassalardan alınması zamanı I və II dərəcəli əlilliyi olan şəxslərin biletləri növbədənkənar əldə etmək və əlillik əlamətləri olan şəxslərin taksi minik avtomobilindən növbədənkənar istifadə etmək hüquqlarına malik olduqları təsbit edilmişdir. Bu müddəalar əlilliyi olan şəxslərin ümumi istifadədə olan avtobus və taksi minik avtomobilləri ilə sərnişin daşınmaları xidmətlərindən istifadəsinin rahat və əlçatan edilməsinə müvafiq şərait yaradır.

195. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Taksi Xidməti" Məhdud Məhsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq xidmətin təşkilində TX-4 markalı "London taksiləri" nəqliyyat vasitələrindən istifadə olunur. Bu nəqliyyat vasitələri əlil arabaları üçün xüsusi qurğu ilə təchiz olunmuş və "*9000" telefon nömrəsi ilə taksi sifarişi xidmətinin olması, əlilliyi olan şəxslərin fərdi hərəkət etməsi imkanının artırılması ilə yanaşı bütövlükdə bu qrup vətəndaşlar üçün taksi minik avtomobilləri ilə sərnişin daşınma xidmətindən istifadəni asanlaşdırır.

196. Bakı Nəqliyyat Agentliyi tərəfindən əlilliyi olan şəxslərin piyada keçidlərindən rahat istifadə edə bilməsi üçün pandusların tikinti-quraşdırma işlərinə 09.12.2017-ci il tarixindən başlanılmışdır. Piyada əlçatanlığının genişləndirilməsi məqsədi ilə ilkin olaraq, Bakı şəhərinin 6 rayonunda, 70 küçədə və 229 kesişmədə pandusların tikinti-quraşdırması həyatə keçirilmiş, eyni zamanda 52 küçədə təhlükəsizlik tumbası, 33 küçədə və 162 kəsişmədə isə məhəccərlər quraşdırılmışdır.

197. Həmçinin, maarifləndirmə işləri çərçivəsində, avtomobilini səkilərdə qeyri-qanuni park edərək piyadaların, və xüsusən də əlilliyi olan şəxslərin hərəkətinə manə olan sürücüləri ictimai qınağa cəlb etmək məqsədi ilə "Əngəl olmadığın müddətdə əngəlli deyiləm" sosial xarakterli videoçarx hazırlanıb ictimaiyyətə təqdim edilmişdir.

https://www.youtube.com/watch?v=wwgJZhF4nzU

198. Bununla yanaşı BNA-nın həyata keçirdiyi "Sovetski" layihəsi zamanı gözdən əlilliyi olan şəxslərin rahatlığı üçün səsli işıqfor quraşdırılmışdır və bu istiqamətdə işlər gələcəkdə Agentliyin həyata keçirəcəyi digər layihələrdə də nəzərdə tutulacaqdır.

### "Müyəssər metro" layihəsi

199. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Bakı Metropliteninenin birgə layihəsi "Müyəssər Metro" layihəsi icra edilir. "Müyəssər Metro" layihəsi əlilliyi olan şəxslərin metrodan rahat və maneəsiz istifadəsini təmin edir. Belə ki, xüsusilə əlil arabası istifadəçilərinin indiyə kimi istifadə edə bilmədikləri ən ucuz nəqliyyat vasitəsinin artıq onlar üçün müyəssərliyi təmin edilmişdir ki, bu da əlilliyi olan şəxslərin əmək, təhsil, ictimai həyatda iştirak və s. bu kimi hüquqlarını reallaşdırması və fərdi müstəqilliyini təmin etməsi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir.

## İfadə və fikir azadlığı, məlumatlara çıxış imkanları (maddə 21)

### Danışan kitabxana

200. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) Məlumat Hesablama Mərkəzi tərəfindən görmə qabiliyyəti məhdud olan insanlar üçün "Danışan kitabxana" yaradılmişdir. Kitabxanada 286-dək peşəkar səviyyədə səsləndirilmiş kitab yerləşdirilmişdir. Kitabxana vasitəsilə 8 janrda-şifahi, müasir, xarici, poeziya, tarixi, dini, uşaq və klassik ədəbiyyatı dinləmək mümkündür. Həmçinin, kitabxanaya avtomatik rejimdə işləyən (1541) xüsusi telefon xidməti vasitəsi ilə 24 saat ərzində müraciət etmək olar. “Danışan kitabxana”nın istifadəçilərinin sayı 5000-ə çatmışdır. Müraciət edən istifadəçi istənilən vaxt dinləməni dayandıra və bir müddət sonra dayandırılmış hissədən dinləməyə davam edə bilər. “Danışan kitabxana” layihəsi Beynəlxalq Telekommunikasiya İttifaqının 2019-cu ilin 8-12 aprel tarixlərində İsveçrə Konfedearasiyanın Cenevrə şəhərində keçirilmiş “İnformasiya Cəmiyyəti üzrə Ümümdünya Sammiti 2019” Forumunda “WSIS Prizes-2019” Mükafatının “Əlverişli mühit” kateqoriyası üzrə “Çempion layihə” adına layiq görülmüşdür.

201. Heydər Əliyev Fondu ilə NRYTN tərəfindən fiziki imkanları məhdud şəxslərin IKT-dən istifadəsini artırmaq məqsədilə Bakı, Naxçıvan, Gəncə, Yevlax və Qubada yaradılan Regional İnformasiya mərkəzləri öz fəaliyyətini davam etdirir.

202. "Dilmanc" layihəsi çərçivəsində mətnlərin səsləndirilməsi üzrə proqram və şrift böyüdücüsü işlənərək saytlara inteqrasiya olunmuşdur.

### Dövlət orqanlarının veb səhifələrinə müyəssərlik

203. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin veb səhifəsinin əlilliyi olan şəxslər üçün müyəssər olmasının təmin edilməsi məqsədilə xüsusi texniki imkan yaradılmışdır

204. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli 189 nömrəli Qərarına əlilliyi olan şəxslərin internet informasiya xidmətlərindən səmərəli şəkildə faydalanması və istifadəsi üçün bərabər şərtlərin və imkanların yaradılması məqsədilə dəyişiklik layihəsi hazırlanmışdır. Dəyişikliyə əsasən əlilliyi olan şəxslərin dövlət orqanlarının internet informasiya ehtiyatlarından istifadə imkanlarının genişləndirilməsi məqsədilə "WCAG (Web Content Accessibility Guideline) 2.1" (Veb Məzmunun Əlçatanlığına dair Təlimat) beynəlxalq standartının 4 əsas prinsipi (informasiyanın əlçatanlığı, idarə edilə bilən olması, anlaşılan olması, etibarlılığı) rəhbər götürülməlidir.

### "Danışan kitab" layihəsi

205. Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Danışan Kitab" layihəsi icra olunur. Tanınmış şəxslərin ifasında 30-dən çox nəşr nümunələri səsləndirilmiş və http://danishankitab.az veb səhifəsi və iOS və Android platformaları üzrə versiyaları istifadəyə verilmişdir. Platformaya yerləşdirilmiş materialların sayı genişləndirilir.

206. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilmiş Azərbaycan Gözdən Əlillər Cəmiyyəti və Əlil Ziyalılar İctimai Birliklərini birgə icra etdikləri "Görmə imkanları məhdud uşaqlar üçün müyəssər formatlı nəşrlərin hazırlanması" adlı layihənin icrası ilə bağlı təqdimat keçirilmişdir. Tədbirdə layihə çərçivəsində görmə və eşitmə məhdudiyyəti olan uşaqlar üçün ölkədə ilk dəfə olaraq hazırlanmış "Tiflo-sudro elektron və daktil" kitablar təqdim olunmuşdur. Sözügedən layihənin məqsədi görmə imkanları məhdud şəxslər üçün informasiya müyəssərliyinin təmin edilməsidir.

207. Mobil tətbiqdə sadə rejimlə yanaşı, görmə imkanları məhdud uşaqların daha asan istifadəsi məqsədilə ölkəmizdə ilk dəfə olaraq xüsusi proqramlaşdırılmış səsli rejimli mobil tətbiq yaradılmışdır.

208. Azərbaycan Respublikası 2018-ci il 12 iyun tarixli 1178-VQ nömrəli Qanunla Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 2013-cü il 27 iyun tarixli “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə müvafiq bəyanatlarla qoşulmuşdur.

209. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və NRYTN-in İKT-nın Tətbiqi və Tədrisi Mərkəzinin birgə təşkilatçılığı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə "Hamı üçün İKT" sosial layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində fiziki imkanları məhdud olan şəxslər, şəhid ailələrinin üzvləri və aztəminatlı ailələr üçün İKT həlləri üzrə tam ödənişsiz təlimlər təşkili olunmuşdur.

210. Nitq və eşitmə qabliyyəti məhdud şəxslərə İKT sahəsində təlimlərin keçirilməsi, bu sahədə gələcəkdə peşəkar səviyyədə çalışmaq istəyən şəxslərə dəstək olmaq və onların cəmiyyətə inteqrasiyasına nail olmaq məqsədilə "Nitq və eşitmə qabliyyəti məhdud olan qizlar üçün İKT təlimləri" layihəsi keçirilmişdir. Layihə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, "ASAN Könüllülər" Təşkilatı, NRYTN-in İKT-nın Tətbiqi və Tədrisi Mərkəzi, "STEP IT Academy Azerbaijan" və "Femmes Digitales" – Azərbaycan Qadınlarının İKT klubunun təşkilatı dəstəyi ilə həyata keçirilmişdir.

211. "Veysəloğlu" Şirkətlər Qrupunun təşəbbüsü və təşkilatçılığı, "Peşəyönümlü təhsilin inkisafına yardım" İctimai Birliyinin və NRYTN-nin İKT-nin Tətbiqi və Tədrisi Mərkəzinin təşkilatçılığı ilə "Istedadlı gənc" program çərçivəsində Qarabağ müharibəsində şəhid olan, həmçinin əlillik dərəcəsi alan şəxslərin övladları, eyni zamanda ailə üzvləri üçün sosial layihə olaraq, 3 aylıq "Veb Dizayn" (saytın layihələnməsi, yaradılması və idarəedilməsi) kursları təşkil olunmuşdur.

## Evə və ailəyə hörmət (maddə 23)

212. Hazırda Ailə Məcəlləsinin 120-ci maddəsində övladlığa götürmək hüququ olmayan şəxslərin siyahısında əlilliyi olan şəxslərlə bağlı məhdudiyyət yoxdur.

213. Nazirlər Kabinetinin 15 avqust 2000-ci il tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı"nın 7-ci bəndindən "Əmək qabiliyyətini itirməklə I və II dərəcə əlilliyə gətirib çıxaran bütün travmalar və xəstəliklər" qeyd olunmuşdur. Lakin, Azərbaycan Respublikası Prezidentinin "Övladlığagöturmə sahəsində idarəetmənin təkmilləşdirilməsi" haqqında 10 dekabr 2018-ci il tarixli 393 nömrəli Fərmanı ilə verilmiş tapşırıqların icrası məqsədi ilə hazırlanmış qanunvericilik layihələrində bu müddəa çıxarılmışdır

## Təhsil (maddə 24)

### İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018-2024)

214. Sağlamlıq imkanları məhdud şəxslərin ümumi təhsil müəssisələrində inklüziv mühitdə təhsilinin təşkil olunması məqsədi ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Dövlət Proqramının icrası ilə bağlı 2018-ci il üçün Tədbirlər Planı Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmişdir.

215. Dövlət Proqramının icrası ilə bağlı məsələlərin, hazırlanan sənəd layihələrinin, aparılan araşdırma və tədqiqatların nəticələrinin müzakirəsinin təşkili və müvafiq təkliflərin hazırlanması üçün nazirliyin müvafiq əmri ilə İşçi Qrupu yaradılmışdır.

216. Dövlət Proqramı çərçivəsində aşağıda qeyd olunan tədbirlər həyata keçirilmişdir:

a) Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunması üçün "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanmışdır. Təklifdə xüsusi təhsilin hədəf qrupu yalnız əlilliyi olan şəxslər deyil, həmçinin fərdi xüsusiyyətləri səbəbindən (disleksiya, disqrafiya, diskalkuliya, hiperaktivlik və digər öyrənmə çətinlikləri) ümumtəhsil kurrikullumu ilə təhsil almaqda çətinliyi olan şəxslərin də cəlb olunması nəzərdə tutulmuşdur. Qanun layihəsində xüsusi təhsilin konseptual baxımından tibbi modeldən sosial modelinə keçidi nəzərdə tutulmuşdur. Layihədə tibbi diaqnozlar və terminlərin pedaqoji və psixoloji terminlərlə əvəzlənməsinə dair təkliflər də öz əksini tapmışdır.

b) Funksionallığın Beynəlxalq Təsnifatı-Uşaqlar və Gənclər qiymətləndirmə metodologiyası azərbaycan dilinə tərcümə edilmiş və uyğunlaşdırılmışdır. Psixoloji-Tibbi-Pedaqoji komissiyaların fəaliyyətlərinin monitorinqi aparılmış və nəticə olaraq komissiyalar 5 nəfərdən ibarət yeni tərkibdə təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin təhsil ehtiyaclarının qiymətləndirilməsi və xüsusi təhsilə cəlb edilmə formasının müəyyənləşdirilməsi üçün psixoloji-tibbi-pedaqoji komissiyalara təlimlər keçirilmiş və qiymətləndirmə alətlərinin istifadəsinə başlanmışdır.

c) "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

d) Psixoloji-Tibbi-Pedaqoji Komissiyanın yeni Əsasnaməsinin layihəsi hazırlanmışdır.

e) İnklüziv təhsil sahəsində işləyən müəllimlərə təlim texnologiyalarının tətbiqi ilə bağlı təlimlərin keçirilməsi üçün modullar hazırlanmışdır. "İnklüziv siniflərdə təlimin təşkili" mövzusunda məktəb direktorlarına seminar keçirilmişdir.

f) Vəzifə Tarif İxtisas Sorğu Kitabçasına "Xüsusi təhsil üzrə mütəxəssis" ştatı əlavə edilmişdir. İnteqrasiyalı və inklüziv təhsilin tətbiq olunduğu təhsil müəssisələrinə profil üzrə direktor müavini ştatının əlavə edilməsi ilə bağlı təklif verilmişdir.

g) Buraxılış imtahanında görmə, eşitmə və nitq qabliyyəti məhdud olan şagirdlərin iştirakı təmin olunmuşdur.

h) Sağlamlıq imkanları məhdud şəxslərlə bağlı məlumat bazası yaradılmışdır.

217. Məlumat bazası evdə təhsil, xüsusi təhsil müəssisələrində və ya xüsusi siniflərdə, o cümlədən ümumtəhsil məktəblərində inklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar barədə məlumatları özündə əks etdirir. Məlumatlar xüsusi təhsilə cəlb

olunacaq uşaqlara dair maliyyə proqnozunun əldə edilməsinə, onların təhsilinə sərf olunan maliyyə xərclərinin izlənməsinə, təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar barəsində (şagirdin ünvanı, məhdudiyyəti, əlillik növü, cəlb olunduğu təhsil proqramı, təvəllüdü, oxuduğu məktəb, sinif və s.) şəhər, rayon və ümumilikdə ölkə üzrə ərtaflı məlumatların əldə edilməsinə imkan yaratmışdır.

## Əmək və məşğulluq (maddə 27)

218. Əlilliyi olan şəxslərin potensial imkanlarından tam istifadəsinə lazımi şəraitin yaradılması, onların cəmiyyətə inteqrasiyasının asanlaşdırılması, məşğulluq səviyyəsinin artırılması, onlar üçün əmək bazarında açıq, inklüziv və bərabər hüquqlu çıxış imkanlarının yaradılması və sosial müdafiəsinin gücləndiriləsi ölkədə həyata keçirilən dövlət siyasətinin əsas məqsədlərindən biridir. Bu məsələ, Azərbaycan Respublikasının Konstitusiyasında, "Məşğulluq haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunlarında təsbit olunmuş, sosial yönümlü dövlət proqramlarında öz əksini tapmışdır.

219. Xatırladırıq ki, 29 iyun 2018-ci il tarixli "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kateqoriyalarına əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər daxil edilib.

220. Beynəlxalq Əmək Təşkilatının metodoloji və texniki dəstəyi ilə "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli Sərəncamın icrası məqsədilə layihə üçün respublikanın 84 rayonu (şəhəri) üzrə 1281 şəxs özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatlarını yaradaraq bu bizneslərini uğurla həyata keçirir. Proqrama cəlb olunmuşların 60 nəfəri əlilliyi olan şəxsdir.

221. 2018-ci ildə işsizlikdən sığorta vəsaiti hesabına özünüməşğulluq layihələrinin maliyyələşdirilməsinə 36 mln. manat vəsait ayrılmaqla 7267 nəfər işsiz şəxs, o cümlədən 913 nəfər əlilliyi olan şəxs biznes planlarını uğurla müdafiə etmişdir ki, nəticədə 5000–dən çox ailə (onlardan 750 əlilliyi olan şəxs) aktivlərlə təmin olunaraq kiçik ailə təsərrüfatını yaratmışdır.

222. Cari ilin 9 ayı ərzində Dövlət Məşğulluq Xidməti tərəfindən 1871 nəfər əlilliyi olan şəxs müxtəlif idarə, müəssisə və təşkilatlarda münasib işlərlə təmin olunub. 1495 nəfər ictimai işlərə, 994 nəfər peşəyönümü tədbirlərinə cəlb edilib.

223. Eyni zamanda əlilliyi olan şəxslərin kiçik sahibkarlığa çıxşına şərait yaradılması üçün onların ozünüməşğulluq proqramına cəlb edilməsi işləri davam edir. Əmək bazarının inkişafı baxımından özünüməşğulluq əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin etməsinə yönəldilən ən vacib aktiv əmək bazarı proqramlarından biridir. Bu ilin

ötən dövründə Xidməti tərəfindən artıq 1355-dək əlilliyi olan şəxs həmin proqrama cəlb edilib və proqram çərçivəsində müvafiq təlimlərdə iştirak edib.

224. 19 dekabr 2018-ci ildə BMT-nin İnkişaf Proqramı və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əhalinin həssas qruplarına dəstək göstərmək, özünüməşğulluq proqramının icrası səmərəliliyini təmin etmək məqsədilə "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" proqramın birgə reallaşdırılması barədə Saziş imzalanmışdır. Layihə ilk növbədə əlilliyi olan şəxslər üçün özünüməşğulluq fəaliyyətlərini pilot qaydada həyata keçirərək, bu təbəqədən olan 500 şəxsin dayanıqlı biznes qurmasına dəstək göstərəcək. İştirakçıların sahibkarlıq vərdişlərinin gücləndirilməsi ilə yanaşı, layihə onların əmək bazarına çıxışla bağlı üzləşdikləri xüsusi problemləri və maneələri nəzərə alaraq sosial və peşə-əmək reabilitasiyasını təmin edəcək.

225. ƏƏSMN, BMTİP və BMT-nin Əhali Fondunun "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması" birgə proqram sənədi üzrə hazırlıq işləri yekunlaşdırılmış və sənəd cari ilin 12 fevral tarixində imzalanmışdır. Proqramın əsas məqsədi əlilliyi olan qadınların ehtiyacları və potensialı ilə bağlı etibarlı məlumatlara əsaslanan siyasətin hazırlanması üçün daha yaxşı məlumatların və dəlillərin hazırlanması, qərarverici şəxslərin və əhalinin əlilliyi olan şəxslərin xüsusi zəiflikləri barədə məlumatlılığının artırılması, habelə həm ölkə daxilində, həm də regionda nümunəvi təcrübələrin mübadiləsinə yönələn bir-biri ilə qarşılıqlı əlaqəli tədbirlər vasitəsilə Hökumətin qadınlara və Dağlıq Qarabağ müharibəsi veteranlarına xüsusi diqqət yetirməklə, əlilliyi olan şəxslərin müdafiəsi və rifahı ilə bağlı hüquqlarını təmin etmək və həyata keçirmək üçün göstərdiyi səylərə dəstək verməkdən ibarətdir.

226. Bildiririk ki, Əlilliyi olan şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin etmək məqsədi ilə Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən razılaşdırılmış tədris proqramları əsasında peşə hazırlığı kursları təşkil olunur ki, 2018-ci il ərzində bu kurslara 86 nəfər əlilliyi olan şəxslər cəlb edilmişdir.

227. British Council Azərbaycan və BP şirkətinin dəstəyi ilə Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılmasına dəstək verilməsi məqsədilə layihə həyata keçirilmişdir. Üç ay davam edən layihədə iştirak etmək üçün müraciət edən 168 nəfər əlilliyi olan şəxsdən 116-sı müsahibəyə dəvət olunub, onlardan 96 nəfər seçilib və 86 nəfər uğurlu karyera qurmaq üçün təlimlərə dəvət alıb. Altı qrupda keçirilən ingilis dili üzrə təlimlərdə 75, sosial bacarıqlar üzrə təlimlərdə 73, kompüter üzrə təlimlərə cəlb olunan 72 nəfərdən 59 nəfəri həmin bacarıqlara yiyələnərək sertifikat alıb. İştirakçıların demək olar ki, 85 faizi layihə müddətində yeni biliklərə yiyələnib.

228. Bununla yanaşı bildiririk ki, 2018-ci ildə BP və onun tərəfdaşları tərəfindən Məşğulluq Xidməti orqanlarında qeydiyyatda olan əlilliyi olan şəxslər üçün "Əlilliyi olan Şəxslərin Məşğulluq Qabiliyyətlərinin Artırılması" layihəsi icra olunmuşdur. Layihənin məqsədi Bakı şəhərində yaşayan əlilliyi olan şəxslərin məşğulluq bacarıqlarını inkişaf etdirmək və onların məşğulluq perspektivlərini artırmaqdır. Layihədə iştirak etmək üçün Bakı şəhərində yaşayan 86 nəfər əlilliyi olan şəxs seçilərək ingilis dili, kompüter bacarıqları

və sosial bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlərə cəlb edilmişdir. Layihə çərçivəsində iştirakçılara həm də psixoloji dəstəyin göstərilməsi və məşğulluq üzrə müvafiq məsləhətlər verilmişdir.

229. 5 may 2018-ci il tarixdə Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əlil Təşkilatları İttifaqı və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirilmişdir. Dövlət qurumları, yerli və xarici şirkətlərin iştirak etdiyi yarmarkanın keçirilməsində məqsəd - sosial müdafiəyə ehtiyacı olan gənclərin məşğulluğunun təmin edilməsinə köməkliyin göstərilməsi olmuşdur.

230. Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin ümumi sayı hazırda ölkə əhalisinin orta hesabla 5,5 faizini təşkil edir. Bu dünya üzrə orta göstəricidən (15 faiz) az olsa da, əlilliyin qarşısının alınması, onların cəmiyyətə və əmək bazarına inteqrasiyası üzrə tədbirlərin genişləndirilməsi və səmərəliliyinin artırılması məsələsini daha da aktuallaşdırır.

231. Qeyd etmək lazımdır ki, əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılması sahəsində fəaliyyətlər beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxlaq Əmək Təşkilatı, BMT-nin Uşaq Fondu, Dünya Bankı, BMT-nin İnkişaf Proqramı və s. sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir, bu sahədə digər ölkələrin təcrübəsi öyrənilir.

### "e-sosial" internet portalı

232. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqi genişləndirilmişdir. Fərmana əsasən, "e-sosial" internet portalı, həmçinin Məşğulluq Alt Sisteminin (MAS) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılması istiqamətində işlər görülməkdədir. "E-sosial" internet portalının qurulması, vahid məşğulluq portalının vacib komponenti kimi "Məşğulluq alt-sistemi"i məmur-vətəndaş təması olmadan tam şəffaflığı, vətəndaşların onlar barədə bütün sosial məlumatlara və xidmətlərə əlçatanlığını təmin edəcəkdir. Eyni zamanda, portal müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota üzrə iş yerlərinin ayrılmasına, həmin şəxslərin kvota üzrə işlə təmin edilmələrinə mərkəzləşdirilmiş qaydada nəzarət etməyə imkan verəcəkdir.

233. "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 noyabr 2005-ci il tarixli, 213 saylı qərarına uyğun olaraq 2018-ci il ərzində 581 müəsissədən 1844 kvota yeri müəyyən edilmişdir. Həmin kvota iş yerlərindən 800 yer əlilliyi olan şəxslər üçün nəzərdə tutulmuşdur. İl ərzində 837 nəfər kvota iş yerləri ilə təmin edilmiş və onlardan 227 nəfəri əlilliyi olan şəxslər təşkil edir. Ümumilikdə 2018-ci il ərzində Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarına 2602 nəfər əlilliyi olan şəxs müraciət etmiş, onlardan 549 nəfəri işlə təmin olunmuş, 85 nəfər peşə hazırlıq kurslarına, 57 nəfər haqqı ödənilən ictimai işlərə, 913 nəfər isə özünüməşğulluq proqramına cəlb olunmuşdur.

234. Bildiririk ki, 2019-cu ilin I rübündə 33969 nəfər işlə təmin olunmuşdur ki, onlardan 969 nəfəri əlilliyi olan şəxsdir. Eyni zamanda, 12430 nəfər qadın, 7336 nəfər gənc də işlə təmin olunanlar sırasındadır.

235. Əlilliyi olan şəxslərin və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərin onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlərə hər hansı inzibati cərimə tətbiq edilməmişdir.

### Məşğulluq Stategiyası (2019-2030)

236. Eyni zamanda 30 oktyabr 2018-ci il tarixli 602 nömrəli sərəncamla təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda əlilliyi olan şəxslərə xüsusi məşğulluq xidmətlərinin təqdim edilməsi üçün müvafiq infrastrukturun yaradılması və peşə reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur.

237. Əlilliyi olan şəxslərin əmək bazarına inklüzisiyasını asanlaşdırmaq məqsədilə onlar üçün xüsusiləşdirilmiş peşəyönümü testləri, müasir tələblərə cavab verən modul təlim proqramlarının və peşə standartlarının hazırlanması nəzərdə tutulur.

238. İl ərzində təxminən 300 nəfərdən artıq əlilliyi olan şəxsə xidmət göstərmək imkanına malik olan 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən 2018-2019-cu illərdə cəmi 609 nəfər gənc (2019-cu ilin 10 ayı ərzində 254 nəfər) peşə reabilitasiya tədbirlərinə (o cümlədən 85 nəfər kompyuter istiqaməti üzrə, 39 nəfər tikişçi, 59 nəfər toxuculuq, 25 nəfər aşbaz köməkçisi, 18 bərb ər qadın, 51 bərbər kişi, 52 rəssamlıq, 30 xalçaçılıq, 3 nəfər montajçı-operator peşələri üzrə kurslara) cəlb edilmişdir.

239. "İşsizlkdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanunu 1 yanvar 2018-ci il tarixindən qüvvəyə minmişdir. Hazırda Azərbaycanda işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılmışdır. Qanun işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi sahəsində aktiv tədbirlərin, xüsusilə özünüməşğulluq layihələrinin əhatə dairəsinin genişlənməsinə, eyni zamanda, bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsi sahəsində ünvanlılıq prinsipi əsasında çevik maliyyələşmə mexanizminin formalaşmasına imkan verir.

240. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 dekabr 2017-ci il tarixli 616 nömrəli qərarı ilə təsdiq edilmiş “Sığortaolunanların əməkhaqlarının maliyyələşdirilməsi Qaydası”na uyğun olaraq sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin, o cümlədən əlilliyi olan şəxslərin əmək bazarına tez bir zamanda adaptasiya olunmasına, zəruri peşə, bilik və bacarıqlara yiyənməsinə, təcrübə əldə etməsinə geniş imkanlar yaradan əməkhaqqının Dövlət Məşğulluq Xidməti tərəfindən işəgötürənlərlə birgə maliyyələşdirilməsi proqramının icrası istiqamətində işlər aparılır.

241. Bununla yanaşı, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının 1.1.10-cu yarımbəndinin icrası olaraq “Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin standartlarının təsdiq edilməsi

haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar layihəsi təsdiq üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur.

### Ağlabatan uyğunlaşdırılma

242. 31 may 2018-ci il tarixdə qəbul olunmuş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun icrası ilə bağlı əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsi istiqamətində onlara iş şəraitinin ağlabatan uyğunlaşma prinsipi əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyi tərəfindən "İnfrastruktur obyeklərinin əliliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması qaydası" layihəsi hazırlanmış və təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

243. Sənədin hazırlanmasında yerli və beynəlxalq ekspertlərlə məsləhətləşmələr aparılmış, BMT Əlilliyi olan şəxslərin hüquqlar üzrə Komitəsinin Konvensiyanı ratifikasiya etmiş ölkələrə qanunvericilikdə nəzərə alınmaq üçün Konvensiyanın 5-ci maddəsi üzrə 5 nömrəli tövsiyə sənədi əsas götürülmüşdür. Eyni zamanda, İslandiya, Lixtenşteyn, Norveç, Avstriya, Gürcüstan, Latviya və Avropa Birliyinin bir sıra ölkələrinin təcrübələri araşdırılmışdır.

244. Qaydada uyğunlaşdırmadan imtinanın ayrı-seçkilik kimi qəbul edilməsi ilə yanaşı, uyğunlaşdırmanın həddən artıq və əsaslandırılmamış öhdəlik yaratmaması prinsipinin də başlıca olması öz əksini tapmışıdır.

245. Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 6 noyabr tarixli, 326 nömrəli Fərmanı ilə verilmiş tapşırığa uyğun olaraq istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət qaydası layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə Fövqaladə Hallar Nazirliyi tərəfindən hazırlanır.

## Siyasi və ictimai həyatda iştirak (maddə 29)

246. Seçkilər zamanı əlilliyi olan namizədlər barədə məlumatların seçki komissiyalarına verilməsi Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmadığından bu barədə statistika aparılmır. Lakin gələcək seçkilərdə əlilliyi olan namizədlər barədə məlumatların toplanması istiqamətində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.

247. Mərkəzi Seçki Komissiyası (MSK) 2003-cü ildən etibarən əlilliyi olan seçicilərin azad, sərbəst və maneəsiz şəkildə səsvermə hüquqlarının təmin olunması üçün müxtəlif genişmiqyaslı layihələr həyata keçirməyə başladı ki, bütün bunlar da əlilliyi olan seçicilərin cəmiyyətə fəal inteqrasiyası və onların cəmiyyətin digər təbəqələri ilə bərabər imkanlar əldə etməsinə hədəfləndi. MSK-nın gözdən əlilliyi olan şəxslərin səsvermədə sərbəst şəkildə iştirakının təmin olunması ilə bağlı 2003-cü il tarixli qərarından sonra, Azərbaycanda keçirilən seçkilərdə gözdən əlilliyi olan seçicilərin gizli səsvermə hüququnun təmin edilməsi üçün xüsusi yardımçı vasitədən — trafaretdən istifadə olunmağa başlanıldı.

248. O vaxtdan etibarən, görmə qabiliyyətini tam və ya qismən itirmiş şəxslər seçki bülletenindəki bütün məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretlərdən istifadə etməklə sərbəst şəkildə istədikləri namizədə səs verirlər.

249. Seçki bülletenləri ilə eyni ölçüdə olan trafaretlərdə bütün namizədlər haqqında olan məlumatlar gözdən əlilliyi olan şəxslər üçün olan Brayl əlifbası ilə seçki bülletenindəki ardıcıllıqla əks olunur. Seçki günü səsvermə məntəqəsinə daxil olan gözdən əlilliyi olan seçiciyə seçki bülleteni üzərinə trafaret qoyulmaqla verilir. Trafaret seçki bülleteninin üzərinə elə şəkildə qoyulur ki, trafaretin Brayl əlifbası ilə yazlmış sətirləri seçki bülletenindəki namizədərə aid sətirlərlə, kəsik kvadratları isə seçki bülletenindəki kvadratlarla üst-üstə düşür və seçici müstəqil şəkildə istədiyi namizədə səs verdikdən sonra trafareti komissiya üzvünə geri qaytarır.

250. Əlilliyi olan seçicilərin digər təbəqəsi – hərəkət qabiliyyəti məhdud olan seçicilərin sərbəst şəkildə seçki məntəqəsinə gələrək səs verməsi üçün yaşadığı ərazilərdə 1113 seçki məntəqəsində daşına bilən panduslar quraşdırıldı.

251. 2018-ci il Azərbaycan Respublikası Prezidentinin seçkilərində də müxtəlif seçici qrupları ilə yanaşı, əlilliyi olan seçicilərin seçkilərdə sərbəst iştirak etmələri və seçki məntəqələrinin onlar üçün də uyğun və rahat olması diqqət mərkəzində saxlanıldı və bu istiqamətdə müxtəlif layihələr gerçəkləşdirildi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə respublika üzrə aparılan araşdırmalar nəticəsində 1455 məntəqədə hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin olduğu müəyyən edildi, həmin məntəqələrdə hərəkət qabiliyyəti məhdud olan seçicilərin maneəsiz hərəkəti üçün şərait yaradıldı ve mobil panduslar quraşdıldı.

252. Eyni zamanda, MSK-nin seçici maarifləndirmə programı çərçivəsində eşitmə qabiliyyəti məhdud olan seçicilərin məlumatlandırılması məqsədi ilə hazırlanan alt yazılı videoklipdə seçici gününə dair bütün səsvermə prosedurаları geniş izah olundu və respublikadakı bütün televiziya kanalları, elecə də sosial şəbəkələr vasitəsilə təqdim olunan bu layihə eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsinə əhəmiyyətli töhvə verdi.

253. Azərbaycan Respublikasının Kontitusiyasının 25-ci maddəsinin VI hissəsinə əsasən sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. Eləcə də Konstitusiyanın 56-cı maddəsinin II və III hissələrində məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkidə iştirak etmək hüququ yoxdur, hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, o cümlədən Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.

## Mədəni həyat, istirahət, asudə vaxtı və idmanda iştirak (maddə 30)

254. Əlilliyi olan şəxslərin mədəni həyata bərabər çıxış imkanlarının təmin oluması məqsədi ilə Milli Kitabxana tərəfindən 2016-cı ildə "Fiziki imkanları məhdud olan şəxslərə

kitabxana xidmətinin təşkili" adlı metodik vəsait hazırlanmış, 150 nüsxə çap edilərək bütün regionların Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə göndərilmişdir.

255. Milli Kitabxananın saytındakı Elektron Kitabxananın "Audiokitablar" bölməsində (http://anl.az/audio-books.php ) xüsusi kateqoriyalı istifadəçilər üçün müxtəlif audio kitablar toplanmışdır. Görmə qabiliyyəti məhdud insanlar üçün hər gün kitabxanalara getmək çətin olduğu üçün onlar Milli Kitabxananın elektron kitabxanasının audio kitablar bölməsinə daxil olaraq hər hansı bir audio kitabı kitabxanaya gəlmədən dinləyə bilər.

256. Respublika Gözdən Əlillər kitabxanası (http://gerk.az/) tərəfindən hər il kitabxananın fonduna daxil olan yeni kitabların nüsxələri səsyazma studiyasında artırılır, respublikanın regionlarında yaşayan gözdən əlilliyi olan oxucuların istifadəsinə verilir. Son illər kitabxana müasir texniki avadanlıqlarla təchiz olunmuş, bütün kompüterlərə gözdən əlilliyi olan şəxslər üçün xüsusi "Jaws" proqramı yüklənmişdir. Həmçinin arzu olunduqda bu proqram gözdən əlilliyi olan istifadəçilərin telefonlarına da tətbiq edilir. Eyni zamanda kitabxanada orta və yaşlı nəsil oxucular üçün yeni latın qrafikalı Brayl şriftinin təlimi kursları təşkil edilir.

257. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 2 fevral 2015-ci il tarixdə əlilliyi olan gənclərin III Respublika yaradıcılıq Festival-Müsabiqəsi keçirilmişdir.

258. 1 may 2019-cu il tarixində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Azərbaycanda ilk dəfə Autizm Festivalı keçirilmişdir. Festivalda Azərbaycanda fəaliyyət göstərən təşkilatlar bu sahədə gördükləri işləri sərgidə nümayiş etdirmişdir. Bundan əlavə bir çox idman federasiyaları da festivala dəstək olaraq Autizm idman klubları ilə birgə fəaliyyətlərini nümayiş etdirmək imkanı əldə etmişdir.

259. Gənclər və İdman Nazirliyinin tabeliyində olan Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzində 2015-2019-cu illərdə 500-dən çox əlilliyi olan uşaq və gənc istirahət düşərgələrində iştirak etmişlər.

260. Eləcə də, Azərbaycan İstiqlal Muzeyində 2016-ci ilin may ayında "Gənc rəssamların xəyalları" adlı sərgi təşkil edilmiş, sərgidə əlilliyi olan gənc rəssamlar, 2017-ci ilin aprel ayında təşkil edilmiş "Bitməyən savaş" adlı sərgidə isə müharibə zamanı əlillik qazanmış hərbçilər iştirak etmişlər. Bununla yanaşı, 2017-ci ilin may ayında İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş "Sülh oyunları" adlı sərgidə əlilliyi olan gənc rəssamlar, 2018-ci ilin may ayında "Hiperkommunikasiya dövründə muzeylər: yeni yanaşmalar, yeni auditoriyalar" adlı sərgidə isə əlilliyi olan gənc rəssamlar, 2018-ci ilin noyabr ayında "Vətən sənə oğul dedi" adlı tədbirdə müharibə zamanı əlil olmuş hərbçilər iştirak etmişlər.

261. Bakı Xoreoqrafiya Akademiyasında 3 əlilliyi olan tələbə, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində isə 2 əlilliyi olan şagird təhsil alır, habelə məktəbdə II dərəcə əlilliyi olan gitara müəllimi fəaliyyət göstərir.

262. Bakı şəhərində görmə imkanları məhdud uşaqlar üçün ixtisaslaşdırılmış musiqi təhsili müəssisəsi - 38 nömrəli 11 illik Musiqi Məktəbi fəaliyyət göstərir. Hazırda məktəbdə fortepiano, skripka, tar, kamança, qarmon, nağara, kanon, xanəndəlik ixtisasları üzrə 185 görmə imkanları məhdud şagird təhsil alır. Məktəbdə 44 nəfər müəllim çalışır ki, onlardan 22 nəfər I və II dərəcəli gözdən əlilliyi olan şəxslərdir.

263. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Filarmoniyası, Heydər Əliyev Sarayı, Beynəlxalq Muğam Mərkəzinin binaları əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmışdır. Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Musiqili, Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Rus Dram Teatrlarında hərəkət edən sətirlər avadanlığı quraşdırılmışdır. Eşitmə qabliyyəti məhdud şəxslər üçün tamaşaların mətnləri hərəkət edən avadanlığa köçürülmüşdür.

264. Gənclər və idman Nazirliyi tərəfindən 2017-ci ildə 30 regionlarda yerləşən Olimpiya İdman Komplekslərində (OİK) panduslar quraşdırılmışdır. (Ağdam, Ağdaş, Füzuli, Biləsuvar, Göyçay, İsmayıllı, Balakən, Oğuz, Sabirabad, Kürdəmir, Şəmkir, Gəncə, Şağan, Hövsan, Tovuz, İmişli, Qəbələ, Sumqayıt, Astara, Cəlilabad, Qobustan, Xaçmaz, Şirvan, Qax, Göy-Göl, Qazax, Şəki, Qusar, Zaqatala, Saatlı). 2015-ci ildə I Avropa Oyunlarının və növbəti illərdə digər beynəlxalq idman tədbirlərinin keçirilməsi ilə əlaqədar yeni tikilmiş və əsaslı təmir olunmuş idman obyektləri beynəlxalq standartlara cavab verir və əlilliyi olan şəxslər üçün müyəssərdir.

265. 2018-ci ildə Bakıda – Akademik Musiqili Teatrda keçirilən V Bakı Beynəlxalq Teatr Konfransının açılış mərasimi “British Council Azerbaijan” təşkilatının “Unlimited” proqramı çərçivəsində təşkil etdiyi əlilliyi olan şəxslərdən ibarət yaradıcı qrupun hazırladığı tamaşa ilə başlamışdır

266. ƏSA Teatrı 2016-cı ilin sentyabr ayından ölkənin ilk və yeganə inklüziv teatrı kimi fəaliyyət göstərməyə başlamışdır. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına kömək etmək, əlilliyi olan və olmayan şəxslərin birgə fəaliyyətini təmin etmək, onların sosial və ictimai rifahını yüksəldərək incəsənətin digər sahələri ilə də məşğul olmalarına təşviq etmək ƏSA Teatrının əsas məqsədləridir. Qısa vaxt ərzində fəaliyyətə başlamasına baxmayaraq, ƏSA Teatrı uğurlu tamaşalarla çıxış etmiş və böyük ictimai rəğbət qazanmışdır.

267. 2018-ci ildən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ƏSA Teatrı ilə yaxından əməkdaşlıq etməyə başlamışdır. Bunun nəticəsi olaraq, 2018-ci ilin dekabr ayında Azərbaycan Dövlət Musiqili Teatrında "Göy quş" tamaşasının premyerası keçirilmişdir. 2019-cu ildə isə ƏSA Teatrı ilə birgə daha iki tamaşanın səhnələşdirilməsi nəzərdə tutulur.

268. Respublikada sağlamlıq imkanları məhdud uşaqların kütləvi bədən tərbiyəsi və idmanda daha fəal iştirakına nail olmağı sürətləndirmək məqsədi ilə yaradılan Azərbaycan Milli Paralimpiya Komitəsi nəzdində Uşaq Paralimpiya Komitəsi ehtiyat idmançıların hazırlanması ilə yanaşı sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyatə inteqrasiya olunmalarına dəstək verməkdədir.

269. 2018-ci il ərzində Uşaq Paralimpiya Komitəsi Sağlamlıq imkanları məhdud uşaqlar üçün üzgüçülük, cüdo, boccia, stolüstü tennis, qolbol, parataekvondo, pauerliftinq və əlil arabasinda idman rəqsi olmaqla 8 idman növündə ümumilikdə 18 yaşına qədər 200 nəfərdən çox sağlamlıq imkanları məhdud uşaqları idmana cəlb edilmişdir.

270. 7 iyun 2018-ci il tarixində BP Azərbaycan şirkətinin dəstəyi və Azərbaycan Respublikası Milli Paralimpiya Komitsəsinin təşkilatçığı ilə Göygöl Olimpiya İdman Kompleksində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Uşaq Paralimpiya idman Festivalı keçirilmişdir. Festivalda cüdo, üzgüçülük, boccia, qolbol, stolüstü tennis, taekvondo, əlil arabasında idman rəqsi və pauerliftinq paralimpiya idman növləri üzrə 110 nəfər sağlamlıq imkanları məhdud uşaq yarışmışdır. Festivalda Gürcüstan Respublikasından olan paralimpiyaçı idmançılarda iştirak etmişdilər.

271. 13-14 noyabr 2018-ci il tarixlərdə Sumqayıt şəhərində yerləşən Respublika Paralimpiya İdman Kompleksində Milli Paralimpiya Komitəsi, "Azərcell Telekom" MMC və "UNICEF"-in Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə respublikada IV Uşaq Paralimpiya İdman Oyunları keçirilmişdir. Oyunlarda Gürcüstan Respublikasından və ölkənin 8 regionundan 140 nəfər Sağlamlıq imkanları məhdud uşaqlar iştirak etmişlər.

# C. Xüsusi öhdəliklər (maddə 31-33)

## Statistika və məlumatların toplanması (maddə 31)

272. Əvvəlki siyahıyaalmalardan fərqli olaraq, 2019-cu ildə Azərbaycanda keçirələcək əhalinin siyahıyaalınmasının sorğu vərəqəsinə əlilliyi olan şəxslərə dair suallar daxil edilmişdir ki, bu da sözügedən əhali kateqoriyasının mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacaqdır. Əhalinin siyahıyaalınması zamanı respondentlərlə sorğunun keçirilməsi müvafiq proqrama uyğun olaraq siyahaalmaya cəlb ediləcək təlimatlandırılmış sayıcılar tərəfindən aparılacaqdır.

273. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun 3.6-cı maddəsinə uyğun olaraq əlilliyi olan şəxslərin reyestrinin formalaşdırılması, aparılması və mühafizəsi ilə əlaqədar hüquqi və təşkilati məsələləri tənzimləyən qaydalar hazırlanmışdır.

274. Reyestrin hazırlanmasında əsas məqsəd əlilliyi olan şəxslər barədə ölkə üzrə vahid və müfəssəl informasiya bazasının formalaşdırılması, infrastruktur obyektlərinin, ictimai binaların, informasiyanın və digərlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün müyəssərliyi barədə məlumatların ölkə üzrə uçotunun aparılması, əlilliyə və əlilliyi olan şəxslərə dair təhlillərin, proqnozlaşdırmanın və monitorinqlərin aparılması, əlillik sahəsində göstərilən dövlət xidmətlərinin keyfiyyətinin artırılması və ayrı-ayrı qurumların əlilliklə və əlilliyi olan şəxslərlə bağlı öhdəliklərinin icra vəziyyətinin monitorinqinin aparılmasından ibarətdir.

275. Qaydalar 18-ə yaxın dövlət qurumunun informasiya sistemləri və ehtiyatlarına inteqrasiya olunmaqla əlillik barədə məlumatların vahid uçotunun aparılması ilə bağlı müddəaları əhatə edir. Reyestri aparılacaq məlumatlar aidiyyəti qurumlarla razılaşdırılmışdır.

## Beynəlxalq əməkdaşlıq (maddə 32)

276. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondu arasında imzalanmış layihədə əlilliyi olan şəxsləri təmsil edən təşkilatların iştirakı nəzərdə tutulur.

277. Xarici ölkələrin müvafiq qurumları ilə sosial təminat sahəsində əməkdaşlığa dair hazırlanan və tətbiq olunan saziş və müqavilələrdə əlilliyi olan şəxslərin sosial müdafiəsi və reabilitasiyası, eləcə də cəmiyyətə inteqrasiyası ilə bağlı təcrübə mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulduğu təqdirdə əlilliyi olan şəxsləri təmsil edən təşkilatların mövqeyi nəzərə alınacaqdır.

278. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur.

279. Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli 1066 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası" yaradılmışdır. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasının təmin edilməsi, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabat hazırlanmaqdan ibarətdir.

## Milli icra və monitorinq (maddə 33)

**a)**

### Konvensiyanın icrasının təmin olunması ilə bağlı koordinasiya mexanizmləri

280. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə müvafiq əmrlə Konvensiyadan irəli gələn vəzifələrin icrası ilə bağlı müvafiq dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət işçi qrup yaradılmışdır. Bu qrupun əsas vəzifəsi əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə plan və strategiyaları əlaqələndirmək və icrasını təmin etməkdir. İşçi qrupunun mütəmadi iclasları keçirilir.

281. 3 Dekabr-Beynəlxalq Əlilliyi olan şəxslər günü ilə əlaqədar 2017-ci il 1 dekabr tarixində "BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının icrası ilə bağlı Azərbaycanın öhdəlikləri: nailiyyətlər, problemlər və perspektivlər" mövzusunda konfrans keçirilib. Tədbirdə Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri, BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəsi, Avropa Şurasının Bakı ofisinin rəhbəri, ayrı-ayrı hökumət və qeyri-hökumət qurumlarının, əlilliyi olan şəxslərin ictimai təşkilatlarının nümayəndələri iştirak ediblər.

282. Konfransda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada əlilliyə yeni yanaşma və Konvensiyanın ayrı-ayrı maddələri (o cümlədən bərabərlik, ayrı-seçkiliyə yol verilməməsi, təhsil, müyəssərlik, məlumatlılığın artırılması, əmək və məşğulluq, mədəni həyatda iştirak və s.) barədə təqdimatlar edilib, Konvensiyanın icrası üzrə qarşıda duran məsələlərə dair müzakirələr aparılıb.

283. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2018-ci il tarixli, 504 nömrəli Sərəncamına uyğun olaraq BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının dövri məruzələrinin hazırlanması və Azərbaycan Respublikasına münasibətdə qəbul edilən tövsiyələrinin icrasına nəzarətin həyata keçirilməsini təmin etmək üçün işçu qrup yaradılmışdır.

**b)**

## Konvensiyanın icrasına nəzarət etmək istiqamətində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin mandatı və həyata keçirdiyi fəaliyyətlər

284. "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" 2001-ci il 28 dekabr tarixli, 246-IIK nömrəli Konstitusiya Qanununun (KQ) 1.1-ci maddəsinə əsasən, Müvəkkil vəzifəsi Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilmişdir.

285. Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur (KQ, maddə 1.10).

286. Müvəkkilin müstəqilliyinin təminatları Konstitusiya Qanununda təsbit edilmişdir. Belə ki, həmin Qanunun 5.1-ci maddəsinə əsasən, Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir.

287. Konstitusiya Qanununun tələbinə görə, müvəkkilin müstəqilliyinə aşağıdakı təminatlar verilir (KQ, maddə 5.2):

a. dəyişilməzliyi;
b. toxunulmazlığı;
c. hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi;
d. maddi və sosial təminatlar.

288. Qeyd olunmalıdır ki, fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır (KQ, maddə 5.3).

289. BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Xarici İşlər Nazirliyinin, əlilliyi olan şəxslərin təmsil olunduğu QHT-ləri öz ətrafında birləşdirən Əlil Təşkilatları İttifaqının təqdim etdiyi rəy və

təkliflərdə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 33.2-ci maddəsinə əsasən yaradılması nəzərdə tutulan bu Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi üçün müstəqil mexanizm funksiyalarının Ombudsman tərəfindən həyata keçirilməsinin məqsədəmüvafiq hesab edildiyi göstərilmişdir.

290. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri tərəfindən Müvəkkilin ünvanına daxil olmuş 2011-ci il 14 may tarixli, 2/387 saylı saylı məktubda Müvəkkilə göstərilən funksiyaların həyata keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi tövsiyə edilmişdir.

291. Bu baxımdan yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda Ombudsmanın fəaliyyətinin səmərəli və keyfiyyətli təşkili zərurəti onun mandatının, eləcə də aparatının ştat vahidlərinin sayının artırılmasını da şərtləndirmişdir. Bununla əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Konstitusiya Qanunu layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Milli Məclisə təqdim edilmişdir.

292. Təklif olunan həmin dəyişiklikliyə görə Müvəkkil milli insan hüquqları institutu kimi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi üçün müstəqil mexanizm funksiyalarını yerinə yetirir və bu funksiyalar Müvəkkilin aparatında yaradılan müvafiq struktur bölmə tərəfindən həyata keçirilir. Müstəqil mexanizm funksiyalarının həyata keçirilməsi qaydaları isə Müvəkkil tərəfindən müəyyən edilir. Eyni zamanda əlilliyi olan şəxslər və onları təmsil edən qeyri-hökumət təşkilatları Müvəkkil tərəfindən monitorinq prosesinə cəlb oluna bilər.

293. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa görə Müvəkkil və Milli Preventiv Qrupunun üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələri, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qarnizon haupt vaxtları ilə yanaşı, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə də daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır (Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1).

294. İnsan Hüquqları üzrə Müvəkkil həm müstəqil monitorinq, həm də milli preventiv mexanizm kimi fəaliyyəti çərçivəsində əlilliyi olan şəxslərin saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması məqsədilə əvvəlcədən xəbərdarlıq etmədən təhsil, səhiyyə, penitensiar və sosial xidmət müəssisələrində də başçəkmələr və monitorinqlər həyata keçirir.

**c)**

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Ofisinin potensialının gücləndirilməsi

295. Azərbaycan Ombudsman İnstitutu (bundan sonra İnstitut) ilk dəfə 2006-ci ildə Milli İnsan Hüquqları İnstitutlarının Beynəlxalq Əlaqələndirmə Komitəsinin (indiki adı Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansı) Akkreditasiya üzrə Alt Komitəsində A statusu ilə akkreditasiya olunmuşdur. Bu tarixdən sonra Ombudsman İnstitutu müxtəlif vaxtlarda akkreditasiyadan keçmiş və A statusunu saxlamışdır. 2017-ci il İnstitut sözügedən komitə tərəfindən növbəti akkreditasiya prosesinə cəlb olunmuş və statusun saxlanılması ilə bağlı tövsiyələr irəli sürmüşdür. Ombudsmanın fəaliyyəti, həmçinin Ombudsman haqqında Konstitusiya Qanunu Paris Prinsiplərinin bütün tələblərinə tam şəkildə cavab verir.

296. Qeyd etmək lazımdır ki, Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə Alt Komitənin 2019-cu il 5-7 fevral tarixlərində Bakıda keçirilmiş 7-ci iclasının yekunlarını əks etdirən "Əməli nəticələr" sənədinin Avropa İttifaqı tərəfindən hazırlanmış ilkin "İnsan hüquqları və demokratiya" bölməsinin "Milli İnsan Hüquqları Təsisatları" hissəsinə Azərbaycan Ombudsmanı GANHRI Alt Komitəsinin Ombudsman təsisatının statusunun aşağı salınması üzrə tövsiyəsinin əsassız olduğunu və onun birbaşa fəaliyyəti ilə əlaqədar olmadığını, həmçinin bu mövzuda əsaslandırılmış məktubların onlara göndərildiyini bildirmişdir. Ombudsman İnstitutu Paris Prinsiplərinə uyğun olaraq, bərabərlik və ayrıseçkiliyə yol verilməməsi prinsipləri əsasında Avropa Birliyi ilə əməkdaşlığının davam etdirilməsində maraqlı olduğu diqqətə çatdırılmışdır.